

*Gün gələcək*
*Azərbaycan dünyaya günəş kimi doğacaq.*

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

7 AVQUST 2020-ci il CÜMƏ № 153 (6772) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

# Prezident İlham Əliyev koronavirusla mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı videoformatda müşavirə keçirib

*Avqustun 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı videoformatda müşavirə keçirib.*

*AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı müşavirəni giriş nitqi ilə açdı.*



## Prezident İlham Əliyevin giriş nitqi

–Koronavirusa qarşı mübarizə işində müsbət dinamika müşahidə olunur. İyulun 16-dan bu günə qədər bu müsbət dinamika deməyə əsas verir ki, görülmüş bütün tədbirlər vaxtında görülmüş tədbirlərdir. Bu tədbirlər nəticəsində vəziyyət bu günə qədər nəzarət altındadır. İyulun 16-dan bu günə qədər yoluxanların sayı sağalanların sayından xeyli aşağıdır. Bu müsbət dinamika deməyə əsas verir ki, biz koronavirus xəstəliyini bundan sonra da nəzarət altında saxlayacağıq. Artıq üç həftədir ki, bu müsbət dinamika, əlbəttə, bizi çox sevindirir. Prinsip etibarilə ilk günlərdən, bu xəstəlik meydana çıxandan dərhal sonra bütün lazımi qabaqlayıcı tədbirlər görüldü. Bunun nəticəsində biz bu vəziyyətdən az itkilərlə çıxırıq.

Əlbəttə, bütün təşkilati məsələlər lazımi səviyyədə görülməli idi və biz buna nail olduq. Xəstəxana fondumuzu qısa müddət ərzində xəstəliklə əlaqədar vəziyyətə uyğunlaşdıra bildik. Həkimlərimizin çox böyük əməyi vardır. Məhz həkimlərin yorulmaz fəaliyyəti nəticəsində Azərbaycanda bu xəstəlikdən ölənlərin sayı aşağı səviyyədədir. Bildiyiniz kimi, bu gün 46 xəstəxana ancaq koronavirus xəstələrinə xidmət göstərir. Onu da bildirməliyəm ki, bu 46 xəstəxananın 41-i son 17 il ərzində tikilib və ya əsaslı şəkildə təmir edilib, müasir avadanlıqlarla təchiz olunub. Əgər biz vaxtında bu addımları atmasaydıq, bu gün çox böyük problemlərlə, faciəvi vəziyyətlə üz-üzə qala bilərdik.

Hesab edirəm ki, biz, eyni zamanda, testlərin keçirilməsi ilə əlaqədar uğurlu addımlar atırıq. Adambaşına düşən testlərin sayına görə bu gün Azərbaycan dünya miqyasında qabaqcıl yerlərdədir. Əlbəttə ki, gərək testlərin keçirilməsi üçün imkan olsun. Biz qısa müddət ərzində laboratoriyalarımızın sayını 5 dəfə artırdıq. Yaxın gələcəkdə alınacaq yeni laboratoriyalar imkan verəcək ki, daha da böyük sayda testlər keçirilsin. Biz bütövlükdə laboratoriyaların sayını 45-ə çatdırmalıyıq. Bu yaxınlarda ölkəmizə yeni təcili tibbi yardım maşınları gətirilmişdir. Yüz maşının gətirilməsi nəzərdə tutulur, onlardan 40-ı artıq Bakıdadır. Bu maşınlar bütün bölgələrə göndərilir və göndəriləcək. Əlbəttə ki, xəstə vətəndaşlarımıza lazımi tibbi xidmətin, təcili tibbi yardımın göstərilməsi üçün bu maşınların da çox böyük əhəmiyyəti vardır.

Eyni zamanda, nəzərə alsaq ki, xəstələrin sayı artmaqda idi və baxmayaraq, mövcud xəstəxanalar kifayət qədər imkanlarımızı genişləndirib, amma yeni xəstəxanaların tikilməsinə ehtiyac var idi. Bu məqsədlə modul tipli xəstəxanaların tikintisi təşkil edildi. Bu günə qədər modul tipli 9 xəstəxana istismara verilmişdir. Onlardan 4-ü bir gün ərzində - iyulun 29-da fəaliyyətə başlayıb. Qobustan, İsmayıllı, Qəbələ və Şəki şəhərlərində mənim iştirakımla bu xəstəxanaların açılışı olmuşdur. Yaxın gələcəkdə modul tipli xəstəxanaların sayı bütövlükdə 16-ya çatdırılacaq və beləliklə, bizim təkcə bu xəstəxanalarda 3200 koronavirus xəstəsi müalicə ala biləcək. Fövqəladə Hallar Nazirliyinin xətti ilə 800 çarpayılıq bir xəstəxana istifadəyə verildi, 1300 çarpayılıq xəstəxana isə bu ayın sonuna qədər istifadəyə veriləcək. Bu da əlavə 2100 çarpayı deməkdir. Biz iki Olimpiya İdman Kompleksinin xəstəxanaya çevrilməsi, yəni, uyğunlaşdırma məsələlərini həll etmək üçün qısa müddət ərzində hazır vəziyyətə gətirdik. Artıq bu komplekslərin hər birində lazım olarsa 300-ə yaxın xəstə müalicə ala bilər. Hələ ki, buna ehtiyac yoxdur, ancaq əgər ehtiyac yaransa, biz, əlbəttə, bu imkanlardan da istifadə edə bilərik.

Qabaqlayıcı tədbirlər deyəndə, əlbəttə ki, bütün bu amillər nəzərə alınır. Çünki biz ən kritik ssenariyə hazır olmalıyıq. Məhz belə operativ, çevik və məqsədə hesablanmış addımlar nəticəsində bu gün xəstəlik nəzarət altındadır. Bir daha demək istəyirəm ki, son üç həftə ərzində xəstələnənlərin sayı azalmaqdadır. Bütün bu addımlar, əlbəttə, imkan verir ki, biz bu vəziyyətdən şərəflə çıxaq, insanlarımızı qoruyaq.

Həkimlərin sayının artırılması ilə əlaqədar təbii çətinliklərimiz var. Ona görə xaricdən həkimlərin dəvət edilməsi məsələsinə baxıldı. Hazırda bir neçə ölkədən həkimlər dəvət edildi və onlar Azərbaycanda xəstələrin müalicəsi ilə məşğuldurlar. Türkiyədən, Rusiyadan, Kubadan, İtaliyadan və Çindən həkim briqadaları Azərbaycana gəlmiş və artıq fəaliyyətə başlamışlar. Bu da, əlbəttə ki, bizə əlavə imkanlar yaradır. Çünki həm bu ölkələrdə səhiyyə sahəsi inkişaf etmiş sahədir, orada təcrübə yüksək səviyyədədir və əlbəttə, həm xəstələrin müalicəsi, həm də təcrübə mübadiləsi məsələləri burada kompleks şəkildə həll olunur.

Bundan sonra da insanların sağlamlığının qorunması üçün bütün lazımi tədbirlər görüləcək. Mən bir daha qeyd etmək istəyirəm, - bunu dəfələrlə demişəm və Azərbaycan xalqı mövqeyimizi bilir, - bizim üçün birinci məsələ insanların həyatı, onların sağlamlığıdır.

O ki qaldı, iqtisadi və sosial məsələlərə, bu məsələlər də öz həllini tapır. Sadəcə olaraq, son aylar ərzində görülmüş işlərə baxmaq kifayət edər ki, hər kəs görsün nə qədər böyük işlər görülübdür. Biz təqribən 5 milyona yaxın insanı geniş sosial paketlə əhatə etdik. Dövlət sektorunda çalışan 900 min insanın böyük əksəriyyəti faktiki olaraq işləmir, ancaq dövlət tərəfindən əməkhaqqı alır. 760 min insana lazımi maliyyə dəstəyi göstərildi və onların iş yerləri qorundu. Əks təqdirdə, 760 min insan işsiz qala bilərdi. Çünki onların çalışdıqları sektorlar pandemiya nəticəsində ən böyük zərər görmüş sektorlardır. Təbii ki, sahibkarlar, işəgötürənlər indi gəlir əldə etmirlər və beləliklə, yüz minlərlə insan işsiz qala bilərdi. Yenə də dövlət operativ tədbirlər nəticəsində dərhal bu məsələyə müdaxilə etdi. Əlbəttə ki, bu məqsədlər üçün böyük maliyyə resursları xərclənibdir.

Altı yüz min işsiz insan, o cümlədən qeyri-formal məşğulluqda fəaliyyət göstərən və müvəqqəti olaraq öz işini itirən, aztəminatlı təbəqəyə aid olan insan dövlət tərəfindən qayğı ilə əhatə olunubdur. Onlara artıq bir neçə ay ərzində 190 manat müavinət verilir. Hesab edirəm ki, bu sosial dəstək bundan sonra da davam etdirilməlidir. Hazırda Azərbaycanın 13 şəhər və rayonunda sərt karantin rejimi tətbiq edilir. Həmin rayonların bu kateqoriyaya aid insanları bu dəstəklə bundan sonra da əhatə olunmalıdır. Sizə göstəriş verirəm ki, avqust ayında da onlara 190 manat ödənilsin.

Bu, sadəcə olaraq, görülmüş işlərin bir hissəsidir. Əgər biz nəzərə alsaq ki, ölkəmizdə çox böyük sosial layihələr həyata keçirilir və 2020-ci ildə bu layihələrin həcmi rekord həddə çatıb. Baxmayaraq ki, həm pandemiya, həm də neftin qiymətinin aşağı səviyyədə olması bizim gəlirlərimizə çox mənfi təsir göstərib, ancaq nəzərdə tutulmuş bir dənə də olsun sosial layihə yarımçıq qalmayıb, yaxud da ixtisar edilməyib. Qeyd etməliyəm ki, bu il rekord sayda məcburi köçkün ailəsi evlərlə, mənzillərlə təmin olunacaq. Bu il bu imkandan 7 mindən çox köçkün ailəsi faydalanacaq. Bu il rekord sayda - 1500 şəhid ailəsi, Qarabağ müharibəsi əlili mənzillərlə təmin ediləcəkdir. Ordu sıralarında qüsursuz xidmət etmiş 400-dən çox hərbçi dövlət tərəfindən pulsuz mənzillərlə təmin olunacaq. Yəni, bütövlükdə ən azı 9 minə yaxın ailə bu il dövlət tərəfindən mənzillərlə təmin ediləcəkdir. Bütün bu mənzillər keyfiyyətli mənzillərdir, demək olar ki, onların hamısı yeni tikilmiş binalarda yerləşir. Beləliklə, əgər biz bir ailənin üzvlərini orta hesabla beş nəfər götürsək, deməli, bir il ərzində ölkəmizdə 45 min insan dövlət tərəfindən pulsuz, keyfiyyətli mənzillərlə təmin edilir. Mən tam əminliklə deyə bilərəm ki, adambaşına düşən saya görə bu, dünyada ən yüksək nailiyyətdir.

Bu, bizim niyyətimizi, siyasətimizi göstərir. Onu göstərir ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bütün bunlar reallıqdır və bu reallığı biz özümüz yaradırıq, heç kimdən yardım almadan, maliyyə dəstəyi almaq üçün heç bir beynəlxalq maliyyə qurumuna müraciət etmədən. Baxmayaraq ki, bu gün dünya ölkələrinin mütləq əksəriyyəti maliyyə yardımı üçün müraciət edib. Biz öz gücümüzə arxalanırıq. Biz bu imkanları xalqımızın istedadı və düşünülmüş siyasət nəticəsində əldə etmişik.

Onu da bildirməliyəm ki, iqtisadi sahədə biznesə dəstək məsələlərində də çox böyük addımlar atılıb. Bu gün bu barədə də məlumat veriləcək və bundan sonra da biznesə dəstək proqramları icra edilməlidir. Həm ilin əvvəlində nəzərdə tutulmuş layihələr, sahibkarlara güzəştli şərtlərlə kreditlərin, subsidiyaların verilməsi, kənd təsərrüfatının stimullaşdırılması, eyni zamanda, pandemiya ilə əlaqədar görülmüş işlər hesab edirəm ki, bizim siyasətimizi tam şəkildə əks etdirir.

Biz büdcəyə düzəlişlər edirik və artıq bu məsələ müzakirə olunur. Milli Məclis artıq bu məsələ ilə bağlı müzakirələr aparır. Bu, bir daha onu göstərir ki, biz bu çətin dövrdə hər bir Azərbaycan vətəndaşına dəstək vermək istəyirik. Çünki bizim büdcəmiz təsdiq olunanda, əlbəttə ki, pandemiya hələ başlamamışdı. Bizim azalan gəlirlərimiz və artan xərclərimiz diktə edirdi ki, büdcəyə yenidən baxaq, dürüstləşmə aparaq, vətəndaşlara maksimum dərəcədə kömək göstərə bilək. ümid edirəm ki, yaxın günlərdə Milli Məclis dürüstləşmə ilə bağlı öz sözünü deyəcəkdir. Hökumətin təklifi ondan ibarətdir ki, neftin qiyməti 55 dollar yox, 35 dollar səviyyəsində götürülsün və ilin sonuna qədər biz öz xərclərimizi bu rəqəm əsasında planlaşdıraq.

Bu da Azərbaycan dövlətinin istənilən böhrana hazır olduğunu göstərir. Çünki biz elə bir möhkəm təməl yaratmışıq ki, istənilən böhranla əlaqədar öz düzgün addımlarımızı atırıq və neftin qiyməti hətta 35 dollar səviyyəsində olsa belə, Azərbaycan bütün sosial öhdəlikləri yerinə yetirəcək, ölkəmiz üçün lazım olan infrastruktur layihələrini icra edəcək, ölkəmizin hərbi potensialının möhkəmləndirilməsi üçün əlavə vəsaitin təşkil edilməsinə də çatacaqdır. Dürüstləşmə ilə əlaqədar, əlbəttə ki, ilk növbədə, sosial və digər layihələr nəzərdə tutulur.

Bu məsələ ilə və koronavirusla bağlı son vəziyyət barədə bu gün siz məlumat verəcəksiniz. Sözü Baş Nazir Əli Əsədova verirəm.

* * *

**Baş Nazir Əli Əsədov çıxış edərək dedi:**

–Çox sağ olun, təşəkkür edirəm, möhtərəm cənab Prezident,

Siz koronavirusla mübarizə ilə əlaqədar görülmüş bütün işləri dediniz. İcazənizlə mən də öz münasibətimi bildirim. Cənab Prezident, fevral ayının 27-dən başlayaraq Sizin Sərəncamınızla bu xəstəliyin qarşısını almaq və əhalimizin sağlamlığı üçün mübarizəni gücləndirmək məqsədilə Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılmışdır. İlk gündən bugünkü günə qədər Sizin tapşırığınızla, cənab Prezident, Operativ Qərargahda iştirak edən bütün şəxslər, o cümlədən qərargahın üzvü olmayan digər bütün hökumət üzvləri və dövlət qurumları bunu əsas vəzifə kimi görür və bu istiqamətdə gecə-gündüz çalışırlar.

Möhtərəm cənab Prezident, bütün dünyada cərəyan edən xəstəliyi və digər ölkələrdə onunla mübarizəni hamı, o cümlədən Azərbaycan xalqı görür. Siz rəqəmləri dediniz, icazənizlə bəzi rəqəmləri də mən demək istəyirəm. Ən qısa müddət ərzində Azərbaycanda koronavirusla birbaşa mübarizə üçün 10 mindən artıq çarpayı yeri hazırlanmışdır. Respublikanın 35 rayon və şəhərində, qeyd etdiyiniz kimi, 46 xəstəxana bu istiqamətdə fəaliyyət göstərir.

**(davamı 2-ci səhifədə)**

## Azərbaycan Respublikasının Tovuz rayonunu Ermənistan Respublikası Silahlı Qüvvələrinin intensiv atəşə tutması nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılmasına dair əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Tovuz rayonunu Ermənistan Respublikası Silahlı Qüvvələrinin intensiv atəşə tutması nəticəsində Tovuz rayonunun Ağdam, Dondar Quşçu, Vahidli, Əlibəyli, Yuxarı Öysüzlü və Aşağı Öysüzlü kəndlərində mülki əhaliyə dəymiş ziyanın aradan qaldırılması məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə 1,0 (bir) milyon manat məbləğində vəsait ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti Tovuz rayonunun Ağdam, Dondar Quşçu, Vahidli, Əlibəyli, Yuxarı Öysüzlü və Aşağı Öysüzlü kəndlərində sosial infrastrukturun yaxşılaşdırılması məqsədilə zəruri hesab olunan işlərə dair təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 6 avqust 2020-ci il.**

## Daşkəsən dəmir filizi yatağının istismara verilməsi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Daşkəsən dəmir filizi yatağının istismara verilməsi ilə əlaqədar ilkin qiymətləndirmə sənədinin hazırlanması məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.64-cü bəndində göstərilmiş məbləğdən "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinə ilkin olaraq 3,0 (üç) milyon manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə bu Sərəncamın 1-ci hissəsində göstərilən işlərin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini nəzərdə tutsun.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**5.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 6 avqust 2020-ci il.**

# Prezident İlham Əliyev koronavirusla mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı videoformatda müşavirə keçirib

**(əvvəli 1-ci səhifədə)**

Cənab Prezident, bu dövr ərzində Azərbaycan həkimlərinin səyi nəticəsində 28 min 890 nəfər xəstəlikdən sağalaraq evlərinə sağ-salamat getmişdir. Bu göstəricilər digər ölkələrlə müqayisədə həddindən artıq yaxşıdır. Bunlar faktlardır və statistikadır. Rəsmi statistika həm bizim ölkə, həm də ümumdünya Səhiyyə Təşkilatı tərəfindən aparılır. Cənab Prezident, Siz də qeyd etdiniz, son dövrdə, əsasən, iyunun 21-dən etibarən xəstəlik Azərbaycanın bəzi bölgələrində, Bakı şəhərində çoxalmağa başlamışdı. Bunu nəzərə alaraq, respublikanın 15 rayon və şəhərində sərtləşdirilmiş karantin rejimi tətbiq olundu. Bu zonalarda xüsusi sərtləşdirilmiş rejim tətbiq etməkdəməqsəd xəstəliyi cilovlamaq və bunun digər bölgələrə yayılmasının qarşısını almaq idi. Görülmüş tədbirlərin nəticəsi iki həftədən sonra özünü göstərdi. Bir rəqəmi də icazənizlə səsləndirmək istəyirəm ki, ən pik vəziyyət bizdə 11 iyul tarixində qeydə alınmışdır. Respublikada aktiv xəstələrin sayı 8 min 651 nəfər idi və görülmüş tədbirlər nəticəsində dünənə olan statistikaya əsasən müalicə alan xəstələrin sayı Naxçıvan Muxtar Respublikası da daxil olmaqla respublika üzrə 2,3 dəfə azalaraq 3 min 787 nəfər olub.

Xəstəlik 476 nəfərin ölümünə səbəb olmuşdur. Bununla əlaqədar, cənab Prezident, Siz də qeyd etdiniz, əvvəlki 6 laboratoriyanın əvəzinə, bu gün fəaliyyət göstərən 31 laboratoriya var. Sizin tapşırığınızla qısa müddətdə onu 40-a çatdıracağıq. Bu günə qədər 760 minə yaxın test aparılmışdır. Bu da bizim əhalimiz üçün çox yüksək nəticələrdir. Cənab Prezident, yüngül formada xəstələnən vətəndaşlarımız xəstəxanada yox, öz arzularına uyğun olaraq, ev şəraitində, poliklinikaların sahə həkimlərinin gündəlik nəzarəti altında müalicə alırlar. Beləliklə, respublikadakı 87 poliklinikada bu nəzarət funksiyası yaradılıb, onun da 40-ı Bakı şəhərindədir.

Cənab Prezident, Sizin tapşırığınız ondan ibarət idi ki, bu xəstəliklə əlaqədar bütün resurslar - maliyyə, inzibati və digər resursların hamısı buna yönəlməlidir. Mən xüsusən də xəstəxanaların təchizatı ilə yanaşı, həkimlərimizə və tibbi personala xüsusi qayğı göstərildiyini qeyd etmək istərdim. Sizin 18 mart tarixli Sərəncamınıza uyğun olaraq, koronavirusla mübarizədə iştirak edən tibbi personala əməkhaqqının 3-5 misli qədər müddətli əlavələr verilməsi tapşırılmışdır. Məruzə edirəm ki, mart-iyun ayları ərzində 64 min 38 nəfər tibbi personala bu günə qədər 58 milyon 300 min manatlıq məvacib vaxtında çatdırılmışdır. Bu işlər davam etdirilir.

Bununla yanaşı, Siz də qeyd etdiniz ki, digər ölkələrdən böyük təcrübəyə malik olan həkim personalı Azərbaycana gətirilmişdir. Bu həkimlər Türkiyə, Rusiya, Çin, İtaliya və Kubadandır. Bu gün ümumilikdə 215 nəfərdən ibarət tibbi heyət bizim həkimlərlə bərabər fəaliyyət göstərir. Cənab Prezident, onu da qeyd etməliyəm ki, görülmüş preventiv tədbirlər nəticəsində və xüsusi karantin rejimi tətbiq olunandan sonra bu riskli zonalarda əhalimiz bu məsələlərdə daha diqqətli olmağa başlamışdır. Bu, özünü həm izolyasiyada, həm də maskalardan istifadə və digər epidemioloji tədbirlərə əməl edilməsində göstərir. Bunun nəticəsi olaraq, Operativ Qərargah görülmüş işlər, xəstəliyin cilovlanması və azalması sayəsində avqustun 5-dən bəzi yumşalma proseslərinə başlamışdır. O cümlədən məruzə etməliyəm ki, əvvəlki 16 şəhər və rayonun 3-ü - Lənkəran, Samux və Siyəzən rayonları bu zonadan kənarlaşdırılmışdır. Həmin bölgələrdə vəziyyət normaldır.

Cənab Prezident, qalan 13 şəhər və rayonda yumşalma prosesləri başlanılıb. Yay fəsli nəzərə alınaraq qərara alınıb ki, insanlar çimərliklərdən istifadə edə bilərlər. Əsas məqamlardan biri də ondan ibarətdir ki, SMS və icaze.e-gov.az portalı vasitəsilə icazə mexanizmi ləğv olunduqdan sonra vətəndaşlar sərbəst hərəkət edə bilirlər.

Onu da məruzə etmək istəyirəm ki, vəziyyətin yaxşılaşma istiqamətində inkişaf etdiyini nəzərə alaraq, Operativ Qərargah yaxın zamanlarda bir sıra yumşalma proseslərinə də hazırlıq işləri görür. Bununla əlaqədar, bildirmək istəyirəm ki, insanlarımız maska və sosial izolyasiya rejiminə, sanitar-epidemioloji qaydalara hələ uzun müddət riayət etməlidir. O cümlədən həkimlərin və sanitar-epidemioloji qurumların tövsiyəsinə əsasən, açılmaqda olan obyektlərin fəaliyyəti üzrə bizim tərəfimizdən lazım olan bütün təlimatlar hazırlanıb. Buna nəzarət üçün xüsusi qruplar və qurumlar ayrılıb. Əhali və sahibkarlar da bilməlidir ki, həmin qaydalara çox ciddi şəkildə riayət olunmalıdır və buna xüsusi nəzarət ediləcək.

Cənab Prezident, məruzə ediləsi rəqəmlər də çoxdur, görülmüş işlər də. Bir məsələni bildirmək istəyirəm ki, Operativ Qərargah qarşımıza qoyduğunuz vəzifələri və məsuliyyəti dərk edir və bundan sonra da xalqımızın sağlamlığı üçün əlindən gələni edəcək.

Diqqətinizə görə çox sağ olun.

* * *

**Prezident İlham Əliyev:** Sosial sahədə nəzərdə tutulmuş işlərlə bağlı müvafiq tapşırıqlar vermişdim. Tapşırıqlar necə icra olunur, hansı işlər görülüb və hansı işlərin görülməsi nəzərdə tutulur? Sahil Babayev, buyurun.

**Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev çıxış edərək dedi:**

–Möhtərəm cənab Prezident, məruzə edirəm ki, Sizin tapşırığınıza müvafiq olaraq, Azərbaycanda pandemiyaya qarşı mübarizə, onun mənfi fəsadlarının aradan qaldırılması üçün geniş tədbirlər planı təsdiq olunmuşdu və bu tədbirlər planının ən əhatəli bölmələrindən biri də məhz məşğulluğa və sosial rifaha dəstək tədbirləri idi. Bu, dörd istiqamət olmaqla 12 tədbiri əhatə edirdi. Burada həm məşğulluq, həm sosial müdafiə, həm də sosial təminat məsələləri öz əksini tapmışdır. Siz vurğuladınız ki, demək olar, əhalinin yarısını, beş milyon insanı əhatə edən tədbirlər planı icra olunmaqdadır. Tədbirlər planının birinci istiqaməti əmək müqaviləsi ilə işləyən insanların məşğulluğunun qorunması və onun təmin edilməsi idi. Sizin dediyiniz kimi, həm dövlət, həm də özəl sektorda 1 milyon 660 min insanın məşğulluğu davam etdi. Onların əməkhaqları, iş yerləri qorundu. Burada dövlətin təqdim etdiyi müxtəlif dəstək proqramları, eyni zamanda, inzibati tədbirlər və leqallaşma məsələləri də öz rolunu oynadı. Həm əməkhaqqı fondumuzda azalma olmadı, əksinə, artım oldu, həm də əmək müqaviləsi ilə işləyən insanların sayında azalma olmadı, artımlar oldu.

İkinci bir istiqamət isə, işsiz və gəlirini itirən aztəminatlı qeyri-formal işləyən şəxslər idi. Bu istiqamətdə bir sıra silsilə tədbirlər həyata keçirildi. 190 manatla bağlı ödəniş aprel, may, iyun aylarında tam şəkildə icra olunub. Sizin bugünkü tapşırığınıza uyğun olaraq, avqust ayı üzrə də 13 şəhər və rayonumuz üzrə bu ödənişlər çox sürətlə həyata keçiriləcək. Bu istiqamətlər üzrə indiyədək 280 milyon manat vəsait xərclənmişdir. Əhalimizin rifahına sosial dəstək baxımından, əlbəttə ki, çox önəmli bir rəqəmdir.

Digər bir istiqamət olaraq, işsiz və qeyri-formal işləyən şəxslər üçün xüsusi olaraq yaradılan haqqıödənilən ictimai işlər proqramı idi. Bu iş yerlərinin sayı da 90 minə qədər artırıldı. Onlardan 38 mini davamlı iş yerləridir, 52 mini isə ikiaylıq iş yerləri idi. Bu proqram da uğurla icra olunur. Davamlı iş yerlərinin 95 faizi, ikiaylıq iş yerlərinin isə 50 faizi tam şəkildə komplektləşdirilmişdir. Sizin tapşırığınızla, əlavə olaraq, özünüməşğulluq proqramının genişləndirilməsinə başlanıldı. Bu proqrama Dünya Bankı, BMT-nin İnkişaf Proqramı, Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimai Birliyi, yerli banklarımız qoşuldu. Dövlət qurumlarımızdan İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, “ASAN xidmət”in yanında ABAD, Qida Təhlükəsizliyi Agentliyi, Kənd Təsərrüfatı Nazirliyi, yəni çox geniş bir əhatə dairəsi yaradaraq kiçik və mikrosahibkarlığın, əhalinin məşğulluğunun təşkil edilməsi baxımından bu proqramın icrasına başlanmışdır.

Sizin tapşırığınızla, həmçinin işsizlikdən sığorta mexanizminin sadələşdirilməsi və genişləndirilməsi üçün təkliflər hazırlandı. Hazırda Sizin tərəfinizdən büdcə dürüstləşməsi zərfi çərçivəsində Milli Məclisə təqdim olunub. Bu qanun layihələrinin qəbul edilməsi imkan verəcək ki, işsizlikdən sığorta ödənişinin həcmini 20 min insana biz artıq bu il ərzində çatdıraq. Əlavə olaraq məlumat verim ki, sosial müdafiə tədbirləri də genişlənərək bu il davam etdi. Pensiya, müavinət, təqaüdlər üzrə iki milyon şəxsi əhatə edən sosial ödənişlər ötən ilin müvafiq dövrü ilə müqayisədə 27 faiz, yəni 590 milyon manat artdı və vaxtında, hətta bir çox hallarda vaxtından əvvəl vətəndaşlarımıza ödənildi. Bunu bir daha xüsusi olaraq vurğulamaq istərdim ki, bu ödənişlərin pandemiya dövründə belə vaxtından əvvəl və artaraq ödənilməsi Azərbaycanın minimum pensiya üzrə MDB məkanında alıcılıq qabiliyyəti üzrə birinci yerdə, orta pensiya üzrə isə MDB məkanında alıcılıq qabiliyyəti üzrə ikinci yerdə qərarlaşmasını təmin etdi.

Cənab Prezident, sosial təminat proqramlarımız da genişləndi. Ünvanlı sosial yardım proqramının artırılması, əlavə 14 min ailənin, 58 min şəxsin bu proqrama cəlb olunması, digər tərəfdən mənzil və avtomobil təminatı proqramımızın genişləndirilməsi çox önəmli rol oynadı. Sizin altı aylıq sosial-iqtisadi inkişafa dair keçirdiyiniz müşavirədə verdiyiniz tapşırığa uyğun olaraq, artıq 554 mənzil vətəndaşlarımıza təqdim edilib. Yəni, təkcə son 20 gün ərzində 250 mənzil vətəndaşlara, şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə təqdim edilib. Siz Bakı şəhərində yerləşən binanın açılış mərasimində iştirak etdiniz və şəhid ailələrinə bu mənzilləri təqdim etdiniz. Digər tərəfdən, Sizin çağırışınıza səs verən sosial tərəfdaşlarımızın köməyi ilə 100 min ailəyə iki dəfə, yəni faktiki 200 min ərzaq payı təqdim olundu. Burada əsas əlilliyi olan şəxslər, sağlamlıq imkanları məhdud uşaqları olan ailələr, çoxuşaqlı ailələr, aztəminatlı digər kateqoriyadan olan insanlara dəstək tədbirləri göstərildi.

Əlbəttə, sosial təminat sahəsində çox önəmli bir yeri də məhz tənha yaşayan ahıl şəxslər tutur. Burada da verilmiş tapşırığa uyğun olaraq, ölkə üzrə 65 yaşdan yuxarı 15 min tənha şəxs nazirliyin sosial xidmətçiləri tərəfindən gündəlik xidmətə götürüldü. Eyni zamanda, mindən artıq əlilliyi olan, sağlamlıq imkanı məhdud uşaqlar bizim sosial xidmət müəssisələrimizdə 24 saatlıq tam xidmətə götürüldü. Əlavə olaraq bildirim ki, bu dövr ərzində - aprel ayından bu günədək 10 mindən çox şəxsə də reabilitasiya vasitələri təqdim edildi. Bu da əlilliyi olan şəxslər üçün daha bir dəstək tədbiri idi.

Sosial layihələrimizin davamlılığının qorunması, sosial infrastrukturun genişlənməsi baxımından da artıq dörd reabilitasiya mərkəzinin təmir-tikintisi yekunlaşıb. Yaxın günlərdə Sumqayıt, Lənkəran, Xaçmaz və Şəkidə yeni reabilitasiya mərkəzləri vətəndaşlarımızın istifadəsinə veriləcək.

Çox sağ olun, cənab Prezident.

* * *

**Prezident İlham Əliyev:** Biznes sahəsində, biznesə dəstək sahəsində hansı işlər görülüb? Hansı işlərin görülməsi nəzərdə tutulur? Buyurun, Mikayıl Cabbarov, məlumat verin.

**İqtisadiyyat naziri Mikayıl Cabbarov çıxış edərək dedi:**

–Təşəkkür edirəm, möhtərəm cənab Prezident.

Cari il martın əvvəlində koronavirusun dünya enerji bazarlarında törətdiyi şoklar yeni iqtisadi mənzərəni şərtləndirdi. Sizin müvafiq Sərəncamınızla ölkə iqtisadiyyatının qısamüddətli və ortamüddətli Tədbirlər Planının hazırlanmasına dair göstəriş verildi. Martın 31-də Sizin qəbulunuzda olarkən iqtisadiyyat üzrə işçi qrupun proqramı təqdim edildi. Sizin göstərişinizlə aprelin 4-də Baş Nazir tərəfindən müvafiq Tədbirlər Planı təsdiqləndi. Bu gün məruzə edə bilərəm ki, görülən işlərin nəticəsində ölkədə makroiqtisadi sabitlik qorunub, büdcə gəlirləri yanvar-iyul dövründə tam icra edilib. Valyuta məzənnəsi tam sabitdir. Qiymətlərin sabitliyi, ölkənin valyuta ehtiyatları qorunub, hətta bir az da artırılıb. Əmək müqavilələrinin sayı azalmayıb, sabit qalıb. Biz müəyyən artım müşahidə edirik. On minlərlə sahibkarlıq subyektinə və sahibkarlıq subyektində çalışan yüz minlərlə muzdlu işçiyə dövlətin əməli maliyyə yardımı çatdırılıb. Yüzlərlə sahibkara yeni proqramlar üzərində güzəştli kreditlər təqdim edilib. Dövlətin investisiyaları, o cümlədən Siz vurğuladığınız kimi, sosial infrastruktura qoyulan sərmayələrin həcmi qorunub və icra olunub. Səhiyyə sektorunun həm infrastrukturunun, həm də tibb personalın maddi rifahına əlavə vəsait ayrılmaqla qarşımızda duran bütün vəzifələr icra edilib. Eyni dövrdə dövlət borcu - nə xarici, nə daxili borc artmayıb. Bunlar hamısı, möhtərəm cənab Prezident, Sizin verdiyiniz göstərişlərin, təqdim etdiyiniz çərçivənin hesabına mümkün olub.

Məruzə etdiyim kimi, əməkhaqlarının əhəmiyyətli hissəsinin ödənilməsinə dəstək proqramı iki mərhələdən ibarət olub. Mart-aprel aylarında və bu yaxınlarda Sizin göstərişinizlə Baş Nazirə müraciət etmişik, bu proqramın daha iki aylıq uzadılmasını nəzərdə tuturuq. Buna görə mən bir daha Sizə dərin təşəkkürümü bildirmək istəyirəm.

Həmçinin eyni dövrdə fərdi (mikro) sahibkarlara dəstəyin davam etdirilməsi, yeni güzəştli kreditlərin tətbiq edilməsi üzrə həm onlayn platforma fəaliyyət göstərir, həm də bu günədək bu yeni proqram çərçivəsində banklar tərəfindən 12,5 milyon manatdan çox kreditlər ayrılıb. Mövcud kreditlərin faizlərinin ödənişlərinə dəstək proqramı icra olunmaqdadır. Vergi güzəştlərinə aid olan bütün tədbirlər qanunvericilikdə öz əksini tapıb, o cümlədən ipoteka proqramının genişlənməsinə dair tədbirlər də həyata keçirilib. Dövlət sektorunda fəaliyyət göstərən müəssisələrə də, bir sıra digər müəssisələrə də iqtisadiyyata dəstək proqramı çərçivəsində dəstək göstərilib. Lakin sözsüz ki, ciddi karantin rejiminin müəyyən müddət uzadılması iqtisadi fəallığa da təbii olaraq mənfi təsir göstərir. Bu, özünü həm də makroproqnozların, yəni 2020-ci ilin ümumdaxili məhsulun proqnozunda göstərir. Hazırda mövsümdən asılı olan ticarət və iaşə obyektlərinin fəaliyyətində, məlum quraqlıq nəticəsində kənd təsərrüfatı sahəsində gözləntilərimizdən daha mənfi nəticələr proqnozlaşdırırıq. Obyektiv səbəblərə görə ölkədaxili və xaricdən gələn turizm axınının dayanması müvafiq sektora təsir edir. Enerji bazarlarının da hələ tam bərpa olunmaması bizim üçün obyektiv çətinliklər yaradır. Bütün bunları nəzərə alaraq, biz qərargahın tərkib hissəsi olaraq sanitar-epidemioloji vəziyyətin imkan verdiyi şəraitdə və vaxtda iqtisadiyyatın ayrı-ayrı sahələrinin qismən bərpa edilməsi üçün çərçivəni hazırlamışıq və müzakirə edirik.

Sizin müvafiq Sərəncamınızla İqtisadiyyat Nazirliyi tərəfindən fəaliyyət göstərən ticarət obyektlərində sanitar-epidemioloji şəraitin qorunması ilə bağlı monitorinq tədbirləri keçirilir. Məruzə edirəm ki, nöqsan aşkarlanmış obyektlərin sayı təxminən 15 faiz civarındadır. Bu pozuntular arasında ən çox qeydə aldığımız və müvafiq cərimələr tətbiq etdiyimiz aşağıdakı dörd kateqoriyadır:

*- İşçi heyətin maska və əlcəklərdən istifadə etməsində pozuntular;*

*- Vətəndaşların növbə zamanı sosial məsafəni qorumaması və növbəlilik stikerləri ilə təmin olunmaması;*

*- Obyektlərin girişində əl dezinfektoru olan spirtdən istifadə edilməməsi;*

*- Vətəndaşların obyektə maskasız daxil olması.*

Bunu xüsusi olaraq ona görə vurğulayıram ki, möhtərəm cənab Prezident, biz istənilən iqtisadi fəallığı bütün sanitar-epidemioloji tələblərə ciddi riayət etmək şərti ilə bərpa edə bilərik. Bunlar həm sahibkarların, həm də vətəndaşların üzərinə düşən məsuliyyətdir. Burada dövlət orqanları monitorinq funksiyasını həyata keçirir və keçirməlidir, amma hər bir vətəndaşın davranışından da çox şey asılıdır. Biz tam anlayırıq ki, təhlükə sovuşmayıb. Bütün yaxşılaşmalara rəğmən öz fəaliyyətimizdə və iqtisadi fəaliyyətdə də bu prinsiplərdən çıxış etməliyik.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *

Dövlətimizin başçısı müşavirədə yekun nitqi söylədi.

## Prezident İlham Əliyevin yekun nitqi

–İndi bir daha demək istəyirəm ki, pandemiya ilə əlaqədar görülmüş işlərə bütövlükdə yüksək qiymət vermək olar. Ancaq əldə edilmiş nəticələr, eyni zamanda, xəstəliyin nəzarət altında saxlanması bizi sakitləşdirməməlidir. Mən bir daha qeyd etmək istəyirəm, üç həftə ərzində müsbət dinamika onu göstərir ki, bütün addımlar düzgün istiqamətdə atılmışdır. Karantin rejiminin əsas məqsədi ondan ibarətdir ki, biz insanlarımızı bu xəstəlikdən qoruyaq, onların həyatını qoruyaq, sağlamlığını qoruyaq və beləliklə, bu vəziyyətdən az itkilərlə çıxaq. Bu günə qədər biz buna nail ola bilmişik. Hesab edirəm ki, xəstəliyin geniş vüsət almamasının əsas səbəbi məhz çox düzgün atılmış addımlardır.

Müsbət dinamika, əlbəttə ki, indi karantin rejiminin yumşalmasına gətirib çıxarır. Ancaq burada da çox ciddi nəzarət mexanizmi olmalıdır. İndi açılan obyektlərdə bütün sanitar-epidemioloji normalar tam təmin edilməlidir. Sosial məsafə təmin olunmalıdır. Obyektlərdə göstərilən xidmət yeni qaydalar əsasında təşkil edilməlidir. Ən əsas məsələ odur ki, buna nəzarət funksiyaları kimin üzərinə düşür? Siz gərək bu məsələ ilə bağlı ciddi təkliflər verəsiniz. Çünki gərək hansısa qurum, yaxud da ki, qurumlar və ya qurumların bir neçəsi bu məsələyə nəzarət etsin. Hesab edirəm ki, elektron vasitələrdən də istifadə olunmalıdır. İndi bir çox obyektlərdə kameralar var. Bu kameralar gərək bizim ümumi nəzarət sistemimizə qoşulsun və onlayn rejimdə videomüşahidə aparılsın. Çünki əgər hansısa insan müfəttiş kimi hansısa obyektə gedib nəyəsə nəzarət edəcəksə, bunun səmərəsi də ola bilər və eyni zamanda, biz bilirik ki, bəzən bu nəzarət çox xoşagəlməz hallara gətirib çıxarır. Hansısa sövdələşmə, hansısa təmənna ola bilər. Ona görə indiki şəraitdə biz, ümumiyyətlə, rəqəmsallaşmaya daha böyük fikir verməliyik. Həm dövlət, həm də özəl sektor tərəfindən göstərilən xidmətləri də bu ümumi sistemə inteqrasiya etməliyik. Hesab edirəm ki, bu məsələ də gərək çox ciddi nəzərə alınsın və onlayn videomüşahidə sistemləri təmin edilməlidir. Müvafiq dövlət qurumlarının imkanı olmalıdır ki, onlar bu videomüşahidəni aparsınlar. Əgər görsələr ki, sahibkarlar bu qaydaları pozur, onda onlar gərək cəzalandırılsın. Bu, birmənalıdır.

Çünki yumşalma bir çox ölkələrdə xəstəliyin yenidən geniş vüsət almasına gətirib çıxarır. Artıq bu haqda mətbuatda kifayət qədər məlumat var. Demək olar ki, bütün ölkələrdə - harada ki, yumşalma olub, obyektlər, turizm obyektləri, ictimai iaşə obyektləri, xidmət sektoruna aid obyektlər açılıb, orada xəstəlik yenidən geniş vüsət alır və buna ikinci dalğa deyirlər. Amma həkimlərin böyük əksəriyyəti bunu, sadəcə olaraq, sanitar normaların gözlənilməməsi ucbatından baş vermiş hadisə kimi dəyərləndirir. Mən də bu yanaşma ilə razıyam. Çünki bu xəstəlik yoxa çıxmayıb. Ona görə xəstəliyə qarşı mübarizə aparılır. Ancaq heç kim deyə bilməz ki, hansısa ölkə bu xəstəliyə qalib gəlib. İkinci dalğa o halda ola bilər ki, xəstəlik yoxa çıxsın və ondan sonra hansısa yeni bir yoluxma mənbəyi üzə çıxsın. Ona görə bu məsələyə çox ciddi nəzarət olmalıdır və bunu siz təşkil etməlisiniz.

Sosial dəstək bundan sonra da davam etdiriləcək. Bir daha demək istəyirəm ki, bizim bu xəstəliklə bağlı əsas məqsədimiz insanların sağlamlığıdır. Bununla eyni əhəmiyyət daşıyan insanların sosial vəziyyətidir və biz bunu təmin edirik. Ondan sonra əhəmiyyət baxımından bizim iqtisadi vəziyyətimiz, iqtisadi inkişafımız, iqtisadiyyatın dayanıqlılığı və biznes dairələrinə göstərilən dəstək, postpandemiya dövrünə hazırlıq gəlir. Halbuki heç kim deyə bilməz ki, postpandemiya dövrü nə vaxt başlayacaq. ümumiyyətlə, hesab edirəm ki, indi proqnoz verməyə heç kim cəsarət etməz. Ancaq hər halda, biz buna da hazır olmalıyıq. Yeni fəaliyyətə başlayan biznes sahələri dövlətin dəstəyini nəzərə alaraq gərək artıq öz gələcək planlarını elə qursunlar ki, ölkənin ümumi iqtisadiyyatında canlanma daha da tez baş versin.

Mən yenə də qeyd etmək istəyirəm ki, bizim bu sahədə itkilərimiz var. Ancaq bu itkilər daha genişmiqyaslı ola bilərdi. Bizim iqtisadiyyatımız altı ayda cəmi 2,7 faiz aşağı düşüb. Burada, eyni zamanda, neftin qiymətinin aşağı düşməsi də rol oynayıb. Eyni zamanda, OPEC+ çərçivəsində götürdüyümüz öhdəliklər də öz rolunu oynadı. Çünki biz hasilatı ixtisar etdik. İndi bəzi inkişaf etmiş ölkələrdə iqtisadi tənəzzül 10 faiz, 14 faiz, 20 faiz, ondan da çoxdur. Əlbəttə ki, bu ölkələrə baxdıqda bizdə vəziyyət daha yaxşıdır. Ancaq yenə də iqtisadi inkişafımız təmin edilməlidir. Hesab edirəm ki, bu ilin sonuna qədər görüləcək işlər, xüsusilə, sahibkarlıqla bağlı olan işlər, eyni zamanda, dövlət şirkətlərinin idarə edilməsi istiqamətində atılacaq addımlar bu iqtisadi canlanmanı təmin etməlidir, itkiləri azaltmalıdır. Dövlət şirkətlərində itkilər kifayət qədər böyükdür. İndi, baxın, bizim qaz itkiləri, düzdür, son vaxtlar azalıb, ancaq yenə də dözülməz həddədir. Bizim su itkiləri. Su məsələlərinin həlli ilə bağlı xüsusi müşavirə keçirmişdim, Tədbirlər Planı qəbul edilib və artıq icra olunur. Amma itkilər 40-50 faiz səviyyəsindədir. Elektrik xətlərindəki itkilər də, əlbəttə ki, bizi narahat edir. Baxmayaraq ki, son vaxtlar bu sahəyə böyük vəsait qoyulub, müasir infrastruktur yaradılıb, lakin yenə də itkilər var. Amma özəl sektorda əgər itki varsa, bu özəl sektorun subyekti müflisləşir, biznesini bağlayır və heç kim bunun köməyinə gəlmir. Amma dövlət şirkətləri öyrəşiblər ki, onların bütün qüsurları, bütün itkiləri dövlət tərəfindən bağlanacaq. Hətta ölkəmizdə qazlaşdırma dövlət büdcəsi hesabına aparılır. Halbuki bu, Dövlət Neft Şirkətinin bilavasitə vəzifəsidir. Biz bu il dövlət büdcəsində kəndlərin qazlaşdırılması üçün 100 milyon manat vəsait nəzərdə tuturuq. Yaxşı, əgər dövlət bunu edirsə, onda Dövlət Neft Şirkəti nə ilə məşğuldur. Axı, bu, bilavasitə onun işidir, onun vəzifəsidir.

Bütün digər dövlət şirkətlərində vəziyyət ya buna oxşardır, ya bundan pisdir, ya da ki, bir qədər yaxşıdır. Amma fakt odur ki, əgər dövlət şirkətləri normal korporativ idarəetmə əsasında işləməyəcəklərsə, onda biz bu problemlərlə daim üzləşəcəyik. Bundan sonra buna dözmək olmaz. Hesab edirəm ki, dövlət şirkətlərinə ayrılan vəsait o şirkətlərin səmərəliliyi ilə üst-üstə düşmür. Bu qədər vəsait ayrılıb, daha da böyük nəticə əldə olunmalı idi. Ancaq bu, yoxdur. Çünki birinci növbədə onlar tam əmindirlər ki, dövlət həmişə bunların bütün problemlərini öz üzərinə götürəcək, onların götürdükləri və verə bilmədikləri kreditləri öz üzərinə götürəcək, onlara subsidiya verəcək və beləliklə, bunlarda arxayınlıq yaranıbdır.

Eyni zamanda, israfçılığa yol verilir, bəzi hallarda lazım olmayan layihələr icra edilir, yaxud da bu layihələrin icrasına start verilir. Təbii ki, bu layihələr gərək başa çatdırılsın. Bu layihələr başa çatandan sonra aydın olur ki, bunun səmərəsi yoxdur. Burada, əlbəttə ki, həm idarəetmədə mövcud olan pozuntular, eyni zamanda, bəzi hallarda şəxsi maraqlar rol oynayır. Mən demişəm, bir daha demək istəyirəm ki, dövlət büdcəsinin formalaşması ərəfəsində, müzakirə zamanı bütün dövlət şirkətlərindən sifarişlər gəlir - buraya bu qədər, oraya bu qədər vəsait verin. Biz əlbəttə ki, sosial infrastruktur layihələrinə bundan sonra da dövlət vəsaiti ayıracağıq. Halbuki baxmaq lazımdır, burada da dövlət-özəl sektor tərəfdaşlığı mümkündür, inkişaf etmiş ölkələrdə bu, var. Amma, necə deyərlər, əsas layihələr üçün tələblər dövlət şirkətlərindən büdcə müzakirə olunan zaman gəlir ki, bu qədər vəsait verin bu işi görək. Lakin bu işin səmərəliliyinə heç kim baxmır - bu iş görülməlidir, yaxud görülməməlidir? Bu iş bu ilmi görülməlidir, yoxsa 2 il gözləyə bilər? Buna da heç kim baxmır. Nəzarət aşağı səviyyədədir. Ona görə bu məsələyə mütləq diqqət yetirilməlidir.

Mən bir daha demək istəyirəm ki, əsas məsələ insanların sağlamlığı, onların sosial vəziyyəti və bizim iqtisadi dayanıqlılığımızdır. Çünki əgər bu, olmasa, bu birinci iki vəzifəni biz icra edə bilməyəcəyik. Bizim güclü iqtisadi imkanlarımız olmasa, bütün niyyətlərimiz kağızda qalacaq. Ancaq biz istəyirik bu işləri elə görək ki, ölkə inkişaf etsin, ölkənin gələcəyi qeyri-neft sektorunun inkişafı hesabına təmin edilsin. Əlbəttə, makroiqtisadi vəziyyətin sabit qalması sevindirici amildir, inflyasiya təqribən 3 faiz ətrafındadır və artıq məlumat verildi ki, bizdə xarici borc artmayıb. ümumi daxili məhsula nisbətdə ola bilsin ki, artıb, çünki ümumi daxili məhsul bizdə azalır və azalacaq. Ancaq bizdə mütləq rəqəmlərdə xarici borc artmayıb və hesab edirəm ki, ilin sonuna qədər azalmalıdır.

Sahibkarlara dəstək bundan sonra daha da şəffaf və mütəşəkkil qaydada göstəriləcəkdir. Sahibkarlar tərəfindən də təqdim edilən layihələr gərək real bazarı nəzərə alsın, həm daxili bazarı, həm xarici bazarı. Çünki burada da boşluqlar var. Baxmayaraq ki, dövlət tərəfindən sahibkarlara güzəştli kreditlər, eyni zamanda, metodiki tövsiyələr verilir, bəzi hallarda təqdim edilən layihələr tam təhlil edilmir. Ona görə bu məsələyə də mütləq baxmaq lazımdır.

Əfsuslar olsun ki, bu il turizm sektoru tam tənəzzülə uğrayıb və əlbəttə, bizi məyus edir. Çünki çox böyük perspektivlər var idi. Ancaq indi yumşalma rejimi çərçivəsində daxili turizmin inkişafı, təşviq edilməsi ilə əlaqədar tədbirlər planı hazırlanmalıdır. Hesab edirəm ki, kifayət qədər imkanlar var.

Onu da bildirməliyəm ki, bizim vergilərimizin 75 faizi özəl sektorda formalaşır. Əgər vergi sistemində ciddi islahatlar aparılmasaydı, biz bu vergiləri də yığa bilməyəcəkdik, onları görə bilməyəcəkdik. Məhz bu sahədə aparılan islahatlar nəticəsində biz 6 ay ərzində proqnozdan əlavə vəsait yığa bildik. Ancaq, əlbəttə ki, ilin sonuna qədər bu, belə davam edə bilməz. Çünki xarici ticarət böyük dərəcədə tənəzzülə uğrayıb, bir çox ticarət obyektləri bağlıdır. Ancaq bu rəqəm həm sevindiricidir, həm də narahatedicidir. Sevindiricidir ona görə ki, bizim özəl sektorumuz artıq vergi verməyə öyrəşir. Onlara edilən güzəştlər, öz mühasibatlığını kölgə iqtisadiyyatından ağ iqtisadiyyata keçirmək üçün verilən müddət artıq öz səmərəsini verdi. Biz, əlbəttə ki, bəri başdan cəza tədbirləri tətbiq edə bilərdik və bunun nəticəsində bir çox şirkətlər çətin vəziyyətə düşə bilərdi. Ancaq onlara vaxt, izahat və tövsiyələr verildi - bundan sonra şəffaf işləməlisiniz, gəlirləri gizlətməməlisiniz, kölgə mühasibatlığı yaratmamalısınız. Təmiz işləyin ki, həm vicdanınız rahat olsun, həm də halal pul qazanın. Azərbaycanda halal pul qazanmaq üçün kifayət qədər imkanlar var. Ona görə bu, sevindiricidir. Ancaq narahat edən nədir? Bəhs dövlət şirkətlərinin payı? Bəs, dövlət şirkətləri tərəfindən ödənilən vergilər hansı səviyyədədir? Əgər onların vergilərini, dövlət tərəfindən onlara verilən subsidiyaları və birbaşa vəsaitin qoyuluşunu götürsək, görərik ki, nə qədər böyük fərq var. Yəni, bu, nəyi göstərir?

**(davamı 3-cü səhifədə)**

# Prezident İlham Əliyev koronavirusla mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı videoformatda müşavirə keçirib

(əvvəli 2-ci səhifədə)

Onu göstərir ki, dövlət şirkətləri bizim ölkəmizi, bizim iqtisadiyyatımızı aşağı aparır. Bunun başqa izahı ola bilməz.

Dövlət Neft Şirkətinə pul verilir, təkcə qazlaşdırmaya yox, qazma işlərinə, onların xarici tərəfdaşlarla birgə çalışdıqları konsorsiumlarda payının maliyyələşməsinə, digər infrastruktur layihələrinin icrasına. Bu pul haradan gəlir? Dövlət büdcəsindən, özü də böyük vəsait. Xəzər Dəniz Gəmiçiliyi. Düzdür, digər dövlət şirkətləri ilə müqayisədə Xəzər Dəniz Gəmiçiliyində vəziyyət daha yaxşıdır. Ancaq burada da gəmilər, tankerlər hansı pulla alınır? Dövlət büdcəsi hesabına. Biz indi Gəmiqayırma zavodunda bir neçə gəmi inşa edirik - yük gəmiləri, Ro-Ro tipli gəmilər. Bunu dövlət büdcəsi hesabına edirik, sonra da veririk Xəzər Dəniz Gəmiçiliyinə. Onlar da istismar edirlər və sonra o pulu qaytarırlar? Bu, böyük sualdır. "Azərenerji"yə nə qədər vəsait ayrılır? Düzdür, böyük işlər görülübdür, stansiyalar, yarımstansiyalar tikilir, Mingəçevir İstilik Elektrik Stansiyası demək olar ki, yenidən qurulub. Amma vəsait haradan gəlir, özünün qazandığı vəsaitdən xərcləyir? Yox, dövlət büdcəsindən. Bu gün dövlət büdcəsinin əsas mənbəyi neft-qaz sahəsidir. Digər şirkətlər - AZAL-ın bütün təyyarələri dövlət tərəfindən alınıbdır. Bütün aeroportlar dövlət tərəfindən tikilibdir. Bəs, bunun dövlətə verdiyi mənfəət, gəlir nədir? Bu təyyarələr alınır, onlar istismar edilir. Bəs, bunun gəliri haradadır? Bu, nə vaxt ödəniləcək, götürdüyü kreditləri gərək dövlət zəmanəti hesabına sonra biz ödəyək? Dəmir yolu da, həmçinin. Yeni xətlər çəkilir, yeni vaqonlar, yeni lokomotivlər alınır, yüz milyonlarla manat vəsait ayrılır. Bəs, bunun səmərəsi haradadır? Axı, səmərə ilə işləməlidir.

Biz demirik ki, inkişaf etmiş ölkələrdə bu işlər lazımi səviyyədə tənzimlənir? Orada zərərlə kim işləyər? Ola bilər hansısa strateji sahələrə dövlət tərəfindən dəstək, dotasiya verilir. Lakin bir çox hallarda orada bütün iqtisadi münasibətlər bazar iqtisadiyyatı prinsipi əsasında qurulub. Amma belə çıxır ki, bizdə özəl sektor bazar iqtisadiyyatı prinsipləri əsasında fəaliyyət göstərir, - halbuki dövlət oraya da dəstək verir, - amma dövlət şirkətləri elə bil ki, sosialist iqtisadi modelində işləyir. Bu, dözülməzdir. Ona görə bu istiqamətdə çox ciddi addımlar atılmalıdır. Sizə tapşırıram, dövlət şirkətlərinin işi ciddi təftiş edilməlidir və yeni idarəetmə sistemi qurulmalıdır. Belə davam edə bilməz. Bu nəzarətsizlik bundan sonra davam edə bilməz.

Artıq müvafiq qurumlar lazımi təkliflər paketi hazırlayıblar. Mənə də ilkin təqdimat edilibdir. Mən bunu dəstəkləmişəm. Hökumətə tapşırıq verirəm ki, yaxın günlərdə dövlət şirkətlərinin yeni idarəetmə sistemi ilə əlaqədar lazımi sənədlər təqdim edilsin və mən onları imzalayacağam.

Digər məsələ bütövlükdə iqtisadiyyatın liberallaşdırılması ilə bağlıdır. Biz buna da getməliyik. Son vaxtlar bu sahədə aparılan müzakirələr deməyə əsas verir ki, artıq ciddi addımların atılması labüddür. Özəlləşdirmə sahəsində daha geniş islahatlar aparılmalıdır. Həm özəl, həm də xarici şirkətləri biz maraqlandırmalıyıq. Çünki bəzi hallarda şirkətlər müraciət edir və onların müraciətlərinə baxılmır, bəzi hallarda uzadılır. Layihələrin bəziləri icra edilir, bəziləri isə yox. Biz özümüz maraqlı olmalıyıq. Biz xarici və yerli investorlara biznesplan verməliyik - bu sahə var, bu müəssisə var, gəl bunu özəlləşdir. Əgər strateji investor oraya böyük vəsait qoyacaqsa, bunu simvolik qiymətə özəlləşdirmək olar. Əgər, o, zəmanət verirsə ki, buraya böyük vəsait qoyacaq. Ancaq bu yolla biz bu müəssisələri işə sala bilərik. Çünki bizim Bakı şəhərində sovet vaxtından qalan nə qədər dağılmış müəssisələr var. Onların böyük əraziləri var. O ərazilərdə həm yeni sənaye müəssisələri yaradıla bilər, - əlbəttə ki, ekoloji standartları tam gözləmək şərti ilə, - eyni zamanda, şəhərsalma ilə əlaqədar burada böyük layihələr icra oluna bilər. Çünki pandemiya dövründə tənəzzülə uğrayan tikinti sektoru özündə böyük potensial cəmləşdirib. Həm iş yerlərinin açılmasına, həm tikinti materialları sənayesinə, həm də bir neçə sahəyə bunun müsbət təsiri olar. İndi şəhərin içində bizim o qədər yarıdağılmış, çürümüş sənaye müəssisələrimiz var. O investorları cəlb etmək lazımdır. Qoy, gedib öz puluna ərazini abadlaşdırsın, ictimai zonalar yaratsın və binalar tikilsin. Çünki buna ehtiyac var və bu, biznesi canlandıracaq.

Mən artıq qeyd etdim ki, dövlət-özəl sektor tərəfdaşlığı gərək daha konkret layihələr əsasında özünü göstərsin. Deyə bilərəm ki, bu, hələ bir çox hallarda niyyət olaraq qalır. Bizdə bir neçə layihədə dövlət və özəl şirkətlər fəaliyyət göstərirlər, sərmayə qoyublar.Amma bu layihələrin sayı çox azdır. Ona görə burada mütləq yeni yanaşma olmalıdır. Bəlkə də hansısa yeni sahələrdə, hətta infrastruktur layihələrində özəl sektor fəaliyyət göstərə bilər. Bu da mümkündür. Təkcə sənaye müəssisələrinin yaradılmasında yox, infrastruktur layihələrində. Onları, sadəcə olaraq, stimullaşdırmaq lazımdır. Eyni zamanda, biz xarici tərəfdaşları da bu işlərə cəlb etməliyik.

Əlbəttə, xərclərə dövlət nəzarəti mexanizmi daha da təkmil olmalıdır. Burada, əlbəttə ki, dövlət qurumları konkret əlavə təkliflər verməlidirlər və ictimai nəzarət olmalıdır. Bizim üçün böyük əhəmiyyət kəsb edən bütün layihələrin icrasında ictimaiyyət nümayəndələri iştirak etməlidirlər. Mən su ilə bağlı müşavirədə qeyd etdim. Alimlər, qeyri-hökumət təşkilatları, mütəxəssislər, media nümayəndələri - onlar da bu işlərdə iştirak etsinlər. Onlar öz təkliflərini versinlər. Yəni, geniş ictimaiyyət gərək bu işlərə cəlb olunsun. Onda bizim işimiz daha rahat gedəcək və xərclərə nəzarət mexanizmi bir neçə təbəqədən ibarət olacaq.

Biz bütün bu işləri onsuz da görməli idik və görürük. Bizim niyyətimiz və siyasətimiz artıq birmənalı şəkildə vətəndaşlara təqdim edilib. Şəffaflıq, dürüstlük, kölgə iqtisadiyyatının əhatə dairəsinin daralması, biznes mühitinin yaxşılaşdırılması və bu istiqamətdə bundan sonra atılacaq addımlar əminəm ki, həm pandemiya dövründə, həm də postpandemiya dövründə bizə yeni imkanlar qazandıracaq.

O ki qaldı, koronavirusla bağlı mübarizəyə, biz bundan sonra da addımlarımızı vəziyyətə uyğun şəkildə atacağıq. Biz hamımız yaxşı başa düşürük ki, insanlar yorulub, karantin rejimi hamımızı yorub. Bütün rəhbərlik fasiləsiz, demək olar ki, 24 saat ərzində iş başındadır. Çünki bu, elə bir bəladır, elə bir xəstəlikdir ki, hələ çarəsi yoxdur. Ona görə yeganə yolumuz insanları qorumaq, yoluxmaların sayını azaltmaq, xəstəliyin geniş vüsət almasına yol verməmək və beləliklə, vətəndaşlarımızı, dövlətimizi bu vəziyyətdən xilas etməkdir. Odur ki, buna uyğun şəkildə addımlar atılacaq. Karantin rejimi nə vaxt mümkünsə yumşaldılacaq, necə ki, artıq ayın 5-dən yumşalma olubdur. Ancaq vətəndaşlar da gərək başa düşsünlər ki, əgər bu yumşalmadan sonra biz yenə də xəstəliyin kəskin artdığını görsək, başqa çarəmiz olmayacaq, gərək yenə də sərtləşdirək. Biz bunu etmək istəmirik. Mən istəyirəm ki, bu yumşalma prosesi tədricən davam etsin və sonrakı yumşalma addımını şərtləndirsin. Amma əgər vətəndaşlar görsələr ki, artıq hər şey açılıbdır, yenə də bütün bu məsafəyə, qoruyucu vasitələrə əhəmiyyət verməyəcəklərsə, onda xəstəlik yenidən alovlanacaq. Biz gərək yenə də sərtləşdirilmiş tədbirlər görək, yenə də iqtisadiyyata zərbə vurulacaq, yenə də insanlar xəstələnəcəklər. Ona görə bütün Azərbaycan vətəndaşlarına bir daha müraciət edirəm ki, məsuliyyətli olun. Bu, çox ağır xəstəlikdir. Bu xəstəlik yaş tanımır, cavan insanlar, gənc insanlar, fiziki cəhətdən sağlam insanlar, idmançılar xəstələnir və rəhmətə gedir. Bu, dünya üçün çox ciddi problemdir, bu gün dünyanın bir nömrəli bəlasıdır. Ona görə hamımız məsuliyyətli olmalıyıq. Əgər belə olsa, dediyim bütün tapşırıqlar yerinə yetirilsə, biz qısa müddət ərzində bu karantin rejimini daha da yumşaldıb normal həyata daha tez qayıda bilərik.

Hesab edirəm ki, bugünkü müzakirə çox faydalı oldu və verilən bütün tapşırıqlar lazımi səviyyədə yerinə yetirilməlidir. Sağ olun.

**AZƏRTAC**

# Milli Məclisin növbədənkənar sessiyasının iclası keçirilib





**Avqustun 6-da Milli Məclisin növbədənkənar sessiyasının növbəti iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, iclası Milli Məclisin Sədri Sahibə Qafarova açıb.

Sədr bildirib ki, gündəliyə 6 məsələnin ikinci oxunuşda müzakirəsi daxil edilib və bunlardan üçü büdcə sisteminə daxil olan sənədlərdə dəyişikliklərin edilməsi ilə bağlıdır. Bu məsələlər Prezident İlham Əliyevin məktubu ilə parlamentə daxil olub.

Gündəlik təsdiq edildikdən sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili ilk məsələ - "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" Qanuna dəyişikliklər edilməsi barədə sənədi ikinci oxunuşda təqdim edib. O qeyd edib ki, yeni növ koronavirus infeksiyasının (COVİD-19) dünyada sürətlə yayılması qlobal iqtisadiyyatda neqativ meyillərin artmasına, dünya enerji və səhm bazarlarında kəskin dalğalanmalara səbəb olub. İstər dünyada, istərsə də ölkəmizdə iqtisadi şərtlər kifayət qədər dəyişib. Ölkədə işgüzar fəallığın və artım sürətinin zəifləməsinə səbəb olub, iqtisadiyyatın əksər sahələrinin inkişafına mənfi təsir göstərib. İqtisadi aktivliyin zəifləməsi nəticəsində qeyri-neft gəlirlərinin azalması və digər maliyyələşmə mənbələrinin daralması dövlət büdcəsinin gəlirləri və xərcləri arasında tarazlığın pozulması təhlükəsini yaradıb.

Tahir Mirkişili bildirib ki, sadalanan səbəblərə görə 2020-ci il dövlət büdcəsinə dəyişiklik edilməsi, dürüstləşmələrə gedilməsinə ehtiyac yaranıb. Yeni çağırışlar kontekstində dövlət büdcəsinin xərcləri üzrə yeni tələbatlar ortaya çıxıb. 2020-ci il dövlət büdcəsinin gəlirləri 24 milyard 124 milyon manat, xərcləri 27 milyard 492 milyon 200 min manat (o cümlədən, mərkəzləşdirilmiş gəlirləri 23 milyard 359 milyon 465 min manat, yerli gəlirləri 764 milyon 535 min manat, mərkəzləşdirilmiş xərcləri 26 milyard 677 milyon 330 min manat, yerli xərcləri 814 milyon 870 min manat) məbləğində olacaq.

Sonra Milli Məclisin komitə sədrləri Siyavuş Novruzov, Qənirə Paşayeva, deputatlardan Fazil Mustafa, Bəhruz Məhərrəmov, Hikmət Məmmədov, Vahid Əhmədov, Erkin Qədirli, Vüqar Bayramov, Rauf Əliyev, Fəzail Ağamalı, Etibar Əliyev, Aydın Mirzəzadə, Əziz Ələkbərov, Arzu Nağıyev, Səttar Möhbalıyev 2020-ci il büdcə layihəsinə dəyişikliklərlə bağlı fikirlərini açıqlayıblar, pandemiyanın yaratdığı iqtisadi gerçəkliklər, əhalinin sağlamlığının qorunması sahəsində görülən işlər, təhsil haqları ilə bağlı büdcə vəsaitinin artırılması, milli təhlükəsizliyin daha da möhkəmləndirilməsi, dövlətimizin başçısı İlham Əliyevin tapşırığına əsasən ölkənin bəzi bölgələrində su qıtlığı problemlərinin həlli ilə bağlı həyata keçirilən layihələr barədə danışıblar.

Tahir Mirkişili və Maliyyə nazirinin müavini Azər Bayramov deputatları maraqlandıran məqamlara aydınlıq gətiriblər.

Sənəd ikinci oxunuşda səsə qoyularaq qəbul edilib.

Sonra Tahir Mirkişili "Sosial təminat və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) 2020-ci il büdcəsi haqqında" qanuna dəyişiklik edilməsi barədə qanun layihəsinə (ikinci oxunuş) dair məlumat verib. 2020-ci ilin birinci yarımilliyi üçün Nazirliyin və Fondun gəlir və xərcləri ilə bağlı göstəriciləri açıqlayıb. Bildirilib ki, təqdim olunmuş sənədə görə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Dövlət Sosial Müdafiə Fondunun gəlirləri və xərcləri 4 milyard 785 milyon manat təklif olunur. Burada 41 milyon manat azalma müşahidə olunsa da, ilin əvvəlindən Fondun hesabında formalaşan 191 milyon manat vəsait qalığı ilə birlikdə sosial müdafiə və sosial təminat üzrə maliyyə dəstəyinin davam etdirilməsi üçün 238 milyon manat vəsaitin ayrılması gözlənilir.

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, deputatlardan Tahir Kərimli, Vahid Əhmədov, Nəsib Məhəməliyev, Sabir Rüstəmxanlı, Aqil Abbas sənədlə bağlı bəzi məqamlara toxundular, təkliflərini bildiriblər.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova, Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Anar Əliyev deputatları maraqlandıran suallara ətraflı cavablar veriblər.

Sənəd səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

İclasda "İşsizlikdən sığorta fondunun 2020-ci il büdcəsi haqqında" Qanuna təklif olunan dəyişikliklər də ikinci oxunuşda müzakirə edilib. Sənədlə bağlı fikirlərini bildirən Tahir Mirkişili qeyd edib ki, Fondun gəlir və xərcləri artırılıb. 2020-ci il büdcəsinin gəlir və xərclərinin 151,2 milyon manat məbləğində təsdiq edilməsi təklif edilir. Bu isə o deməkdir ki, cari ilin təsdiq edilmiş proqnozu ilə müqayisədə 23 milyon manat çoxdur. İşsizlikdən Sığorta Fondunun büdcəsinin artması işsizliyə görə sığorta ödənişlərinin əhəmiyyətli şəkildə (5 milyon və ya iki dəfə) artmasına, peşə hazırlığı və əlavə təhsilin təşkilinə (əlavə olaraq 2 milyon manat), özünüməşğulluq tədbirlərinin təşkilinə (əlavə olaraq 15 milyon manat) əlavə imkanlar yaradacaq. Həyata keçirilən islahatlar nəticəsində əmək müqavilələrinin sayının və əməkhaqqı fondunun artması da pandemiya şəraitində işsizlikdən sığorta fondunun gəlirlərinin əvvəlki göstəricidə saxlanmasına imkan verir.

Sənəd səsə qoyularaq qəbul edilib.

Sonra Musa Quliyev "Məşğulluq haqqında" Qanunda dəyişiklik edilməsi barədə sənədi ikinci oxunuşda şərh edib. Komitə sədri sənədin parlamentdə birinci oxunuşda müzakirəsi zamanı deputatlar tərəfindən səsləndirilən təkliflərin əksəriyyətinin nəzərə alındığını bildirib. Qeyd edilib ki, təkliflər əsasən texniki və stilistik xarakterli olub.

Qanun layihəsi ilə bağlı komitə sədrləri Sadiq Qurbanov, Siyavuş Novruzov, Qənirə Paşayeva, deputatlardan Razi Nurullayev və Sabir Rüstəmxanlı yeni təkliflərini səsləndiriblər.

Bundan sonra komitə sədri Musa Quliyev, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Anar Əliyev deputatları maraqlandıran suallara aydınlıq gətirdikdən sonra qanun layihəsi səsvermə yolu ilə ikinci oxunuşda təsdiqləndi.

Sonra "İşsizlikdən sığorta haqqında" Qanuna edilən dəyişikliklər (ikinci oxunuş) barədə məlumat verən Musa Quliyev deyib ki, layihə işsiz şəxslərin sosial müdafiəsinin gücləndirilməsi və işsizlikdən sığorta sisteminin əhatə dairəsinin genişləndirilməsi məqsədilə hazırlanıb. Layihəyə əsasən, dövlət orqanının və ya hüquqi şəxsin ləğv edilməsi, işçilərin sayı və ya ştatların ixtisar edilməsi əsasında əmək müqaviləsinə xitam verilmiş şəxslər üçün sığorta stajı 3 ildən 1 ilədək azaldılır. Sığorta ödənişinin əhatə dairəsinin genişləndirilməsi ilə əlaqədar olaraq, ölkəmizdə müddətli əmək müqaviləsinin müddətinin bitməsi əsasında əmək müqaviləsinə xitam verilmiş şəxslər üçün də sığorta ödənişi hüququ yaradılması təklif olunur. Təklifə əsasən, sığorta ödənişinin təyin edilməsi üçün şəxsin müddətli əmək müqaviləsi üzrə ən azı 3 il fasiləsiz iş stajı olmalı, onun əmək müqaviləsinə Əmək Məcəlləsinin 68-ci maddəsinin 2-ci hissəsinin b) bəndinə uyğun olaraq xitam verilməlidir. Sığorta ödənişi şəxsin işsiz kimi qeydiyyata alındığı tarixdən 3 ay keçdikdən sonra ödəniləcək, bir şərtlə ki, bu müddət ərzində şəxs ona təklif edilmiş münasib işlərdən imtina edən şəxs olmasın. Sığorta ödənişi 3 ay müddətinə təyin ediləcək, minimum məbləğdə həyata keçiriləcək və təkrar sığorta ödənişinə yol verilməyəcək. Layihədə işsizlikdən sığorta ödənişinin elektron təyinatı mexanizminin yaradılması təklif olunur.

Bundan başqa, müxtəlif iqtisadi faktorlardan asılı olaraq, ölkədə əmək bazarında baş verən dəyişikliklərə bağlı məşğulluq tədbirlərinin çevik maliyyələşdirilməsi üçün İşsizlikdən sığorta fondunun büdcəsinin gəlir və xərcinin qanunla, gəlir və xərc istiqamətlərinin isə müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilməsi təklif olunur.

Musa Quliyev qeyd edib ki, sənədin komitədə və Milli Məclisdə müzakirələri zamanı deputatlar və mütəxəssislər tərəfindən təklif olunan vacib məqamlar nəzərə alınıb.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Sonra Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (ikinci oxunuş) təqdim edib. Bildirilib ki, Milli Məclisin dünən keçirilən iclasında sənədlə bağlı geniş məlumat verilib və deputatlar tərəfindən heç bir təklif qeydə alınmayıb. Əli Hüseynli Məcəllənin müvafiq maddəsindən çıxarılmış "yerli idarəetmə orqanı" sözünün qanunvericilik təşəbbüsü subyektinin təklifi ilə bərpa edildiyini diqqətə çatdırıb.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda təsdiqlənib.

Bununla da Milli Məclis bugünkü işini başa çatdırıb.

**AZƏRTAC**

*"Lavanguardia" qəzeti:*

# Ermənistan başa düşməlidir ki, Azərbaycanın səbri tükənməz deyil

**İspaniyanın qocaman nəşrlərindən biri olan "Lavanguardia" qəzetində Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin İspaniyanın EFE informasiya agentliyinə verdiyi müsahibə "Azərbaycanın səbri tükənməz deyil" sərlövhəsi ilə dərc edilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidentinin köməkçisi bu müsahibədə Ermənistanla sərhəddə yaranmış vəziyyəti şərh edib.

Hikmət Hacıyev qeyd edib ki, rəsmi Bakı Ermənistanla münaqişənin danışıqlar yolu ilə həllinin tərəfdarıdır. Bu halda Azərbaycan Respublikasının ermənilər tərəfindən işğal edilmiş Dağlıq Qarabağ bölgəsinin və ona bitişik yeddi rayonun, BMT Təhlükəsizlik Şurasının qətnamələrində müəyyən edildiyi kimi hökmən işğaldan azad edilməsi nəzərdə tutulur.

Hikmət Hacıyev vurğulayıb: "Əks halda Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq öz ərazi bütövlüyünü qorumaq və sərhədlərinin toxunulmazlığını təmin etmək hüququnu saxlayır".

O xəbərdarlıq edib ki, erməni silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərində qeyri-qanuni hərbi iştirakı qabaqcadan söylənilə bilməyəcək potensial nəticələr riskinin mənbəyidir".

Hikmət Hacıyev həmin müsahibəsində deyib: "Ermənistan münaqişənin həllində maraqlı deyil, o, indiki status-kvonu möhkəmlətməyə və onun müddətini uzatmağa çalışır". Prezidentin köməkçisi vurğulayıb ki, Azərbaycan münaqişənin dinc yolla nizamlanmasının tərəfdarıdır. O deyib: "Otuz ilə yaxındır ki, biz danışıqlar prosesində iştirak edirik. "Strateji təmkin" adlandırıla biləcək bu fakt ölkəmizin məsələyə konstruktiv münasibətinin parlaq nümunəsidir. Lakin biz nəticə əldə edilməsinə yönəlmiş məzmunlu danışıqların tərəfdarıyıq".



LAVANGUARDIA

Internacional

Directo

Última hora sobre los rebrotes de coronavirus en España

AZERBAIYÁN ARMENIA (ENTREVISTA)

Azerbaiyán advierte a Armenia de que su paciencia "no es infinita"

0

REDACCIÓN

06/08/2020 09:37

Farid Gajramánov

Bakú, 6 ago (EFE).- "La paciencia de Azerbaiyán no es infinita", afirma en una entrevista con Efe Hikmet Hajiyev, asesor del presidente azerbaiyano, Ilham Alíev, y jefe del Departamento de Política Internacional de la Presidencia azerbaiyana, al comentar el agravamiento de la situación en la frontera con Armenia.

Diplomático de carrera, Hajiyev sostiene, sin embargo, que Bakú "prefiere una solución

H.Hacıyev xəbərdarlıq edib ki, Bakı danışıqlar xatirinə danışığa getməyəcək, danışıqlar əbədi davam edə bilməz, çünki "indiki status-kvo yolverilməzdir və dəyişməlidir".

"Azərbaycanın səbri tükənməz deyil", - deyən H.Hacıyev vurğulayıb ki, işğal hərbi cinayətlərlə və insanlığa qarşı cinayətlərlə, etnik təmizləmələr müşayiət olunub. Münaqişə nəticəsində 1 milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb.

Prezidentin köməkçisinin sözlərinə görə, Ermənistan başa düşməlidir ki, XXI əsrdə beynəlxalq münasibətlər cəngəlliklər qanunu ilə nizamlana bilməz.

İyulun 12-dən başlayaraq Azərbaycan-Ermənistan sərhədinin Tovuz rayonu istiqamətində atəşkəs rejiminin vaxtaşırı pozulmasına, azərbaycanlı hərbi qulluqçuların və bir nəfər dinc sakinin həlak olmasına gəldikdə isə, H.Hacıyev bu hadisələri qətiyyətlə "qəsdən törədilmiş provokasiya", "Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə qarşı təcavüz" adlandırıb.

Onun fikrincə, Yerevan bu hərəkətləri etməklə bir neçə məqsəd güdür. Onun bir məqsədi qlobal neft-qaz və nəqliyyat layihələrinin Azərbaycanın şimal-qərbində Tovuz rayonunda yerləşən strateji infrastrukturuna ziyan vurmaqdır.

H.Hacıyev bildirib ki, Ermənistan rəhbərliyinin daha bir məqsədi Ermənistanda ictimai rəyi daxili problemlərdən, amanabənd sosial-iqtisadi vəziyyətdən, müxalifətçilərin təqib edilməsindən və COVİD-19 pandemiyasından yayındırmaq idi.

Hikmət Hacıyev sonda diqqətə çatdırıb ki, Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını bu münaqişəyə cəlb etməyə çalışıb. Azərbaycan Prezidentinin köməkçisi vurğulayıb: "Azərbaycan ordusu bütün hücumları dəf etdi və Yerevan öz məqsədlərinin heç birinə nail olmadı".

**AZƏRTAC**

*Müdafiə Nazirliyi:*

# Azərbaycan Ordusunda keçirilən andiçmə mərasimində valideynlərin iştirakı qadağandır

**Avqustun 9-da Azərbaycan Ordusunun təlim hissə və bölmələrində gənc əsgərlərin andiçmə mərasimi keçiriləcək.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Nazirlər Kabineti yanında Operativ Qərargahın koronavirus infeksiyasına qarşı mübarizə ilə bağlı müvafiq qərarına əsasən Azərbaycan Ordusunun şəxsi heyətinin təhlükəsizliyini təmin etmək və hərbi qulluqçuların yoluxmasının qarşısını almaq məqsədilə valideynlərin, eləcə də ictimaiyyət və KİV nümayəndələrinin andiçmə mərasimlərində iştirakı qadağandır.

Vətəndaşlarımızdan bu qərara anlayışla yanaşmağı və andiçmə mərasimlərinə gəlməməyi xahiş edirik.

**AZƏRTAC**

# Ölkədə su təsərrüfatının vəziyyətinin yaxşılaşdırılması sahəsində geniş elmi tədqiqatlar aparılması məsələləri müzakirə edilib

**Avqustun 6-da Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Rəyasət Heyətinin növbəti iclası keçirilib.**



Akademiyadan AZƏRTAC-a bildirilib ki, tədbiri AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyev açaraq gündəlikdəki məsələlərlə bağlı Rəyasət Heyətinin üzvlərinə məlumat verib.

İclasda Prezident İlham Əliyevin yanında su təsərrüfatının vəziyyətinə həsr olunmuş videoformatda olan müşavirədə dövlətimizin başçısının çıxışından irəli gələn məsələlərə dair geniş müzakirələr aparılıb.

Mövzu ilə əlaqədar çıxış edən akademik Ramiz Mehdiyev su təsərrüfatının vəziyyətinin yaxşılaşdırılması barədə Azərbaycan alimlərinin təkliflərinin hazırlanmasını yüksək dəyərləndirib. Bu istiqamətdə fundamental tədqiqatların genişləndirilməsinə ehtiyac olduğunu deyən AMEA-nın prezidenti tezliklə su obyektləri, meliorasiya və suvarma sistemləri barədə rəqəmsal kadastr xəritəsinin hazırlanmasının, mütəmadi monitorinqlərin aparılmasının, su təhlükəsizliyi ilə bağlı yarana biləcək problemlərin əvvəlcədən müəyyənləşdirilərək aradan qaldırılması yollarına dair elmi əsaslandırılmış təkliflər hazırlanmasının vacibliyinə toxunub. Akademik Ramiz Mehdiyev, həmçinin yaxın keçmişdə respublikada kəhriz sularından istifadənin geniş vüsət aldığını xatırladıb, bu sahədə tədqiqatların zəruriliyini diqqətə çatdırıb.

Məsələ ilə bağlı AMEA-nın birinci vitse-prezidentləri, akademiklər İsa Həbibbəyli, İbrahim Quliyev, AMEA-nın vitse-prezidentləri, akademiklər Tofiq Nağıyev, Dilqəm Tağıyev, Rasim Əliquliyev, İradə Hüseynova və akademik-katib, AMEA-nın müxbir üzvü Əminağa Sadıqov çıxış edərək fikir və təkliflərini söyləyiblər.

Rusiya, Ukrayna və İsrailin təcrübəsinin öyrənildiyini bildirən alimlər su probleminin həllində Azərbaycan alimlərinin iştirakı ilə müasir texnologiyalardan istifadənin, ölkəmizin su ehtiyatlarının və suya olan tələbatının müəyyənləşdirilməsinin əhəmiyyətini qeyd ediblər.

Bundan əlavə, kimyaçı alimlərimiz tərəfindən respublikanın su anbarlarında geniş müşahidə və monitorinqlər aparıldığını və hazırlanmış hesabatların müvafiq dövlət qurumlarına göndərildiyi vurğulanıb. Eyni zamanda, regionların ekoloji yüklənməsi istiqamətində kompleks tədqiqatlara ehtiyac olduğu bildirilib, quraqlığa davamlı və şoran torpaqlarda becərilən buğda sortları və digər bitki növlərinə dair tədqiqatların genişləndirilməsi tövsiyə edilib.

Müzakirələr nəticəsində AMEA-da su təsərrüfatının vəziyyətinin yaxşılaşdırılması üzrə tanınmış alimlərdən ibarət İşçi Qrupunun yaradılması qərara alınıb.

İclasda, həmçinin AMEA-nın prioritet istiqamətlərilə bağlı hazırlanmış təkliflərin elmi bölmələrdə müzakirələr edilərək müəyyənləşdirilməsinə qərar verilib.

Sonda gündəlikdə duran digər məsələlərə baxılıb.

**AZƏRTAC**

# Xarici İşlər naziri Ceyhun Bayramov Avropa İttifaqının Azərbaycandakı nümayəndəsi Kestutis Yankauskas ilə görüşüb

**Avqustun 6-da Xarici İşlər naziri Ceyhun Bayramov Avropa İttifaqının Azərbaycandakı nümayəndəsi Kestutis Yankauskas ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazir Ceyhun Bayramov Avropa İttifaqı (Aİ) ilə qarşılıqlı faydalı tərəfdaşlıq münasibətlərinin Azərbaycan tərəfindən yüksək qiymətləndirildiyini bildirib. O, Aİ-nin Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə dəstəklə bağlı birmənalı mövqeyini məmnuniyyətlə vurğulayıb.

Tərəflər Aİ-Azərbaycan əməkdaşlıq gündəliyində duran bir sıra məsələlər, o cümlədən enerji sahəsində strateji tərəfdaşlıq, nəqliyyat layihələri, pandemiya ilə mübarizədə həmrəylik və əməkdaşlıq, ikitərəfli münasibətlərin hüquqi əsasını təşkil edəcək yeni hərtərəfli saziş üzrə danışıqların davam etdirilməsi və digər məsələlər üzrə fikir mübadiləsi aparıblar.

Nazir bu il iyulun 12-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində Ermənistan silahlı qüvvələri tərəfindən törədilən hərbi təxribat, qonşu dövlətin nail olmadığı məqsədləri və bölgədəki gərginliyin kökündə duran təcavüzkar siyasəti barədə qarşı tərəfi məlumatlandırıb. Azərbaycanın münaqişənin danışıqlar yolu ilə həllinə sadiq olduğunu, lakin danışıqların imitasiya yox, real və mahiyyət üzrə aparılmalı olduğu vurğulanıb. İşğalçı ölkə Ermənistanla, işğala məruz qalan Azərbaycana eyni yanaşma nümayiş etdirilməsinin qəbuledilməz olduğunu bildirən nazir, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin də tələb etdiyi kimi, işğalçı qüvvələrin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasının və azərbaycanlı məcburi köçkünlərin öz evlərinə geri qayıtmasının zəruriliyini vurğulayıb.

Aİ nümayəndəsi sərhəddə baş vermiş gərginliklə bağlı Avropa Xarici Fəaliyyət Xidmətinin sözçüsünün bəyanatına istinad edib və bölgədə gərginliyin artmasına səbəb olacaq addımlardan çəkinməyə çağırdıqlarını qeyd edib. O, Aİ-nin xüsusi nümayəndəsinin də vəziyyəti yaxından izlədiyini, bölgədə sülh və təhlükəsizliyin təmin olunmasında maraqlı olduğunu vurğulayıb.

Tərəflər arasında, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

# Hikmət Hacıyevin EFE informasiya agentliyinə müsahibəsi bir sıra ölkələrin qəzet və xəbər saytlarında dərc edilib

**Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin İspaniyanın EFE informasiya agentliyinə müsahibəsi İspaniyanın "La vanguardia" qəzeti ilə yanaşı, ABŞ-ın "Holanes", Dominikan Respublikasının "Diariolibre" qəzetlərinin elektron platformalarında, Argentinanın "İnfobae" xəbər saytında, Yahoo! Nes- Yahoo! tərəfindən yaradılan xəbər aqreqatorunda dərc edilib.**




AZƏRTAC xəbər verir ki, "Azərbaycanın səbri tükənməz deyil" sərlövhəsi ilə dərc olunan müsahibədə ispandilli oxuculara Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, Ermənistan silahlı qüvvələrinin Azərbaycanla sərhəddə törətdiyi son hərbi təxribat və onun nəticələri barədə məlumat verilir.

Hikmət Hacıyev müsahibədə rəsmi Bakının Ermənistan-Azərbaycan münaqişənin danışıqlar yolu ilə həllinin tərəfdarı olduğunu bildirir. Qeyd olunur ki, Azərbaycan Respublikasının ermənilər tərəfindən işğal edilmiş Dağlıq Qarabağ bölgəsi və ona bitişik yeddi rayon BMT Təhlükəsizlik Şurasının qətnamələrində müəyyən edildiyi kimi qeyd-şərtsiz işğaldan azad edilməlidir.

Hikmət Hacıyev vurğulayıb: "Əks halda Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq öz ərazi bütövlüyünü qorumaq və sərhədlərinin toxunulmazlığını təmin etmək hüququnu saxlayır".

O xəbərdarlıq edib ki, erməni silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərində qeyri-qanuni hərbi iştirakı qabaqcadan söylənilə bilməyəcək potensial nəticələr riskinin mənbəyidir və Ermənistanın işğalçılıq siyasətini davam etdirməsi onun orta əsirlərə dair fikirlərə bağlılığını sübut edir.

Hikmət Hacıyev həmin müsahibəsində deyir: "Ermənistan münaqişənin həllində maraqlı deyil, o, indiki status-kvonu möhkəmlətməyə və onun müddətini uzatmağa çalışır.

Otuz ilə yaxındır ki, biz danışıqlar prosesində iştirak edirik. "Strateji təmkin" adlandırıla biləcək bu fakt ölkəmizin məsələyə konstruktiv münasibətinin parlaq nümunəsidir. Lakin biz nəticə əldə edilməsinə yönəlmiş məzmunlu danışıqların tərəfdarıyıq".

H.Hacıyev xəbərdarlıq edib ki, Bakı danışıqlar xatirinə danışığa getməyəcək, danışıqlar əbədi davam edə bilməz, çünki "indiki status-kvo yolverilməzdir və dəyişməlidir".

"Azərbaycanın səbri tükənməz deyil", - deyən H.Hacıyev vurğulayıb ki, işğal hərbi cinayətlərlə və insanlığa qarşı cinayətlərlə, etnik təmizləmələrlə müşayiət olunub. Münaqişə nəticəsində 1 milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Prezidentin köməkçisinin sözlərinə görə, Ermənistan başa düşməlidir ki, XXİ əsrdə beynəlxalq münasibətlər cəngəlliklər qanunu ilə nizamlana bilməz.

İyulun 12-dən başlayaraq Azərbaycan-Ermənistan sərhədinin Tovuz rayonu istiqamətində atəşkəs rejiminin vaxtaşırı pozulmasına, azərbaycanlı hərbi qulluqçuların və bir nəfər dinc sakinin həlak olmasına gəldikdə isə, H.Hacıyev bu hadisələri qəsdən törədilmiş təxribat, Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə qarşı təcavüz adlandırıb. Onun fikrincə, Yerevan bu hərəkətləri etməklə bir neçə məqsəd güdür. Onun bir məqsədi qlobal neft-qaz və nəqliyyat layihələrinin Azərbaycanın şimal-qərbində Tovuz rayonunda yerləşən strateji infrastrukturuna ziyan vurmaqdır.

H.Hacıyev bildirib ki, Ermənistan rəhbərliyinin daha bir məqsədi Ermənistanda ictimai rəyi daxili problemlərdən, amanəbənd sosial-iqtisadi vəziyyətdən, müxalifətçilərin təqib edilməsindən və COVİD-19 pandemiyasından yayındırmaq idi.

Hikmət Hacıyev sonda diqqətə çatdırıb ki, Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını bu münaqişəyə cəlb etməyə çalışıb. Azərbaycan Prezidentinin köməkçisi vurğulayıb: "Azərbaycan Ordusu bütün hücumları dəf etdi və Yerevan öz məqsədlərinin heç birinə nail olmadı".

**AZƏRTAC**

# Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisində Azərbaycan nümayəndə heyətinin yeni tərkibi təsdiqlənib

**Avqustun 6-da Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin (QDİƏT PM) Baş Assambleyasının onlayn formatda 55-ci plenar iclası keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Azərbaycanı iclasda Milli Məclisin deputatları - QDİƏT PM sədrinin müavini, qurumda Azərbaycan nümayəndə heyətinin rəhbəri Eldar Quliyev və nümayəndə heyətinin üzvü Eldar İbrahimov təmsil ediblər.

Sessiya çərçivəsində QDİƏT Parlament Məclisi Baş Assambleyasının 62-ci Büro iclası keçirilib. Sonra qurumun Daimi Komitəsinin 55-ci iclası işə başlayıb. Daha sonra plenar iclasın açılışı olub. QDİƏT PM-nin hazırkı sədri, Gürcüstan Parlamentinin sədri Arçil Talakvadze açılış nitqi ilə iştirakçıları salamlayıb.

QDİƏT PM sədrinin müavini, Azərbaycan nümayəndə heyətinin rəhbəri Eldar Quliyevin sədrliyi ilə keçən plenar iclasda tədbirin gündəliyi qəbul edilib, 2019-cu il noyabrın 20-21-də Bolqarıstanın paytaxtı Sofiyada keçirilmiş 54-cü plenar iclasın protokolu təsdiqlənib, qurumun fəaliyyəti barədə hesabat dinlənilib.

Nümayəndə heyətlərinin yeni üzvlərinin seçilməsi ilə bağlı məsələnin müzakirəsi zamanı Azərbaycan nümayəndə heyətinin 6 nəfərdən ibarət yeni tərkibi təsdiqlənib. Əvvəl nümayəndə heyətimiz 5 üzvdən ibarət olub.

Sessiyada Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) fəaliyyəti barədə məlumat verilib. Məlumatı QDİƏT Daimi Beynəlxalq Katibliyinin Baş katibinin birinci müavini Ebru Barutçu Gökdenizler təqdim edib.

Toplantıda QDİƏT Parlament Məclisi sədrinin müavinləri seçilib.

Sonra tədbirdə müxtəlif mövzularda məruzələr, müvafiq tövsiyələr dinlənilib və müzakirələrdən sonra qəbul edilib.

Serbiya nümayəndə heyətinin rəhbəri İqor Beçiç "Avropa və Asiyanı birləşdirən layihələrin reallaşdırılmasında qanunvericilik dəstəyi (Bir kəmər, bir yol)" mövzusunda çıxış edib. Mövzuya dair tövsiyəni Hüquqi və siyasi məsələlər komitəsinin sədri Mixail Yemelyanov (Rusiya) təqdim edib.

Yunanıstan nümayəndə heyətinin üzvü Sofiya Vultepsi "QDİƏT-ə üzv ölkələrdə maliyyə texnologiyalarının inkişafı" məruzəsi ilə çıxış edib. İqtisadiyyat, ticarət, texnologiya və ekologiya məsələləri komitəsinin sədri Konstantin-Ketelin Zamfira (Rumıniya) mövzu ilə bağlı tövsiyəni təqdim edib.

Rumıniya nümayəndə heyətinin üzvü İoan Vulpesku "QDİƏT-ə üzv dövlətlərdə tarixi səhiyyə müəssisələrinin qorunması və onların müasir dövrdə rolu" mövzusunda çıxış edib. Mədəniyyət, təhsil və sosial məsələlər komitəsinin sədri Mətin Gündoğdu (Türkiyə) müvafiq tövsiyəni təqdim edib.

Yığıncaqda, habelə 2019-cu maliyyə ili üzrə Auditor Hesabatı verilib. Baş Assambleyanın 2020-ci il payız sessiyasının vaxtı, yeri və gündəliyi ilə bağlı məsələyə də baxılıb.

İclasın sonunda quruma sədrlik rotasiya üsulu ilə Yunanıstana təhvil verilib.

Bununla da Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin Baş Assambleyası öz işini başa çatdırıb.

**AZƏRTAC**

# ABŞ-ın "Newsmax" mətbu orqanı Ermənistanın Azərbaycana təcavüzündən yazır

**Azərbaycan Respublikasının ABŞ-dakı səfiri Elin Süleymanovun bu ölkənin "Newsmax" mətbu orqanında Ermənistanın ölkəmizə qarşı təcavüzü və ABŞ polisinin radikal ermənilərə qarşı nifrət zəminində cinayət araşdırmasına həsr olunmuş məqaləsi dərc edilib.**

Müəllif yazır ki, iyul ayında Ermənistanın Azərbaycana növbəti hərbi təcavüzü koronavirus pandemiyasının pik dövründə və bir çox dövlətlərin öz vətəndaşlarının sağlamlığı və təhlükəsizliyinə fokuslandığı bir zamanda baş verib. Ermənistanın koronavirus böhranı yaşamasına baxmayaraq, bu onu Azərbaycana qarşı dövlət sərhədi boyunca Tovuz rayonu istiqamətində hücuma başlamaqdan çəkindirməyib.

Ermənistanın hücumunun Azərbaycanın işğal olunmuş ərazilərindəki təmas xəttindən yüzlərlə mil şimalda olması son təcavüzün arxasında dayanan niyyətləri açıq şəkildə göstərir.

Həlli uzanan Ermənistan-Azərbaycan münaqişəsi böyük Avrasiya regionunda sülhə və təhlükəsizliyə əsas təhdid olaraq qalmaqdadır. Ermənistan tərəfindən Azərbaycanın beynəlxalq birlik səviyyəsində tanınmış ərazisinin 20 faizinin qanunsuz işğal olunması və etnik təmizləməyə məruz qalması bir milyon insanı məcburi köçkün etməklə ağır humanitar böhrana səbəb olub. İşğaldan 30 il sonra - bu gün məcburi köçkünlər öz evlərinə qayıda bilməyərək hələ də didərgin həyatı yaşayırlar.

Ermənistan qoşunlarının dərhal çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi və çoxsaylı digər beynəlxalq sənədlərə baxmayaraq, Ermənistan beynəlxalq hüququn prinsiplərinə və Fransa, Rusiya və ABŞ-ın həmsədrliyi ilə ATƏT-in Minsk qrupunun danışıq səylərinə məhəl qoymur.

Faktiki olaraq Ermənistanın son əməlləri və bəyanatları mövcud danışıqlar formatını açıq şəkildə pozur və sülh prosesi üçün real perspektivlərə zərbə vurur.

E.Süleymanov qeyd edir ki, formal müstəqilliyinə baxmayaraq, Ermənistan qonşu ölkələrlə daimi münaqişələr və xarici asılılıq nəticəsində heç zaman tam suverenlik qazanmayıb.

Bu gün Ermənistan heç bir strateji dəyərə malik olmayıb, inteqrasiya və inkişafa doğru addımlar atmağa qadir olmayaraq keçmiş Sovet İttifaqının sonuncu qalıqlarındandır. Eləcə də Ermənistan cəmiyyəti antisemitizm, nasistlərlə əməkdaşlıq və Yaxın Şərq terrorist qruplaşmaları ilə münasibətlər kimi problemlərlə hələ də qarşılaşmaqdadır.

Emiqrasiya səviyyəsi yüksək olan Ermənistan son vaxtlar qlobal miqyasda ən qəzəbli ölkə olaraq qiymətləndirilib. Bəzi hallarda bu qəzəb ölkə sərhədləri xaricində də özünü göstərir.




Son günlərdə Los-Anceles polisi Azərbaycanın Los-Ancelesdəki Baş Konsulluğunun qarşısında baş verən etiraz aksiyası zamanı kiçik qrup azərbaycanlılara qarşı erməni radikalları tərəfindən şiddətli hücuma görə nifrət zəminində cinayət araşdırmasına başladıb.

Xəritəyə bir baxış Ermənistanın məsuliyyətsiz militarist yanaşmasının fəsadlarının daha geniş olduğunu göstərir.

Cənubi Qafqaz bölgəsi Ermənistan, Azərbaycan və Gürcüstandan ibarət olmaqla dünyanın vacib strateji ərazilərindəndir. Məsələn, Azərbaycan dünyada Rusiya və İranla həmsərhəd olan yeganə dövlətdir, həmçinin İsrailin vacib dost və tərəfdaşıdır.

Bundan əlavə, Azərbaycan Avropa və Asiya arasında əvəzsiz bağlılıq yaradır və paytaxt Bakı şəhəri Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəmərinin başlanğıc nöqtəsidir. BTC İsrailin illik neft təchizatının 40 faizini təmin edən və vaxtilə Ceyms Bondun "Dünya yetərli deyil" filmində yer alan neft kəməridir.

Azərbaycandan başlayaraq altı ölkəni, Gürcüstan, Türkiyə, Yunanıstan, Albaniya və İtaliyanı birləşdirən Cənub Qaz Dəhlizi də öz başlanğıcını Bakının yaxınlığından götürür. Bu boru kəmərləri, eləcə də Asiyanı Avropa ilə birləşdirən dəmir yolu xətləri və NATO hava qüvvələri üçün Əfqanıstana uçuş dəhlizi Ermənistan tərəfindən hücum edilmiş ərazinin yaxınlığından keçir.

Diplomat qeyd edir ki, inkişaf və əməkdaşlığa heç bir töhfə verməyən Ermənistan bir daha qlobal əhəmiyyət daşıyan enerji infrastrukturu və regional təhlükəsizliyə təhdid yaratmaqla özünü gündəmdə saxlamağa çalışır. Ermənistan hərbi qüvvələri, fəaliyyətə başlamasına bir neçə ay qalmış Cənub Qaz Dəhlizindən 15 mil məsafədə yerləşən əraziyə hücum edir.

Ermənistan sərhəd boyunca Azərbaycan ordu hissələrini sərhəd qoşunları ilə əvəz etdiyi əraziyə hücum edib, mülki yaşayış evlərini artilleriya atəşinə tutub və nəticədə itki və zərərlərə səbəb olub.

Təmas xəttindən uzaqda dövlət sərhədi boyunca hücuma keçən Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) dəstəyinə ümid edirdi. Lakin Ermənistanın münaqişənin əhatə dairəsini genişləndirmək cəhdi baş tutmadı və ədavətin kimin başlaması aydın olduğundan KTMT Ermənistanın dəstək xahişini rədd etdi.

Ermənistan rəhbərliyi ABŞ dövlət katibi Maykl Pompeonun substantiv sülh danışıqları çağırışlarına məhəl qoysa və Azərbaycanla məzmunlu danışıqlara cəlb olunsaydı, Ermənistan xalqının daha parlaq gələcəyini və bütün Cənubi Qafqaz regionunda davamlı sülhü təmin edərdi. Əksinə, Ermənistan firavanlığın və regionun təhlükəsizlik arxitekturasının vacib elementlərinə təhdid yaratmaqla özünü bir daha destruktiv qüvvə kimi göstərib.

Sonda qeyd edilir ki, beynəlxalq ictimaiyyətin nümayəndələri rəsmi Yerevana sülhün dividendlərinin zəngin olmasını və təcavüzün nəticələrinin getdikcə artmasını izah etməklə Ermənistan xalqına kömək olmalıdır.

**AZƏRTAC**

# Azərbaycanda koronavirus infeksiyasından daha 435 nəfər sağalıb, 144 yoluxma faktı qeydə alınıb

**Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 435 nəfər sağalıb, 144 yoluxma faktı qeydə alınıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVİD-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 3 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 33 min 247 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 29 min 275 nəfər müalicə olunaraq sağalıb, 479 nəfər vəfat edib. Aktiv xəstə sayı 3493 nəfərdir.

Ötən müddət ərzində 766 min 179 test aparılıb. Bugünkü test sayı isə 7050-dir.

**AZƏRTAC**

# Azərbaycan və Türkiyə hərbçiləri birgə təlimlərin müxtəlif elementlərini icra ediblər

**Hərbi əməkdaşlıq haqqında sazişə əsasən ölkəmizdə keçirilən Azərbaycan-Türkiyə birgə genişmiqyaslı döyüş atışlı taktiki təlimlərinin növbəti mərhələsi keçirilib.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimlərin ssenarisinə uyğun olaraq bölmələr zirehli texnika və helikopterlərin istifadəsi ilə müxtəlif döyüş elementlərini, eləcə də digər təlim-döyüş tapşırıqlarını icra ediblər.

**AZƏRTAC**

# Dünya şöhrətli lider

**Çağdaş dövrümüzün dünya çaplı siyasət və dövlət xadimlərindən biri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərlik dövrünü əhatə edən professor Əflatun Nemətzadənin “Siyasət səmasında parlayan ulduz. İlham Əliyev” kitabı qardaş Türkiyədə işıq üzü görmüşdür. Böyük türk dünyasının Azərbaycan adlı məmləkəti 1993-cü ildən - ümummilli lider Heydər Əliyev xalqın təkidli xahişi ilə yenidən ali hakimiyyətə qayıtdıqdan sonra, beynəlxalq aləmdə özünə layiq yer tutmağa başladı. Müasir Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyev xalqımızı böyük bəlalardan, dövlətimizi, ümumiyyətlə dünya xəritəsindən yox olmasından xilas etməsi Azərbaycan xalqı qarşısında mühüm tarixi missiya kimi dəyərləndirildiyi qədər, İlham Əliyev kimi müasir və praqmatik siyasətçini, dövlət xadimini, əsl lideri yetişdirməsi də xalqımız qarşısında bir o qədər mühüm və tarixi əhəmiyyətli xidmətdir. Heydər Əliyev siyasətinin ən layiqli davamçısı kimi İlham Əliyev həm ulu öndərin, həm də Azərbaycan xalqının bütün gözləntilərini doğrultdu, o, Azərbaycanı tarixdə heç zaman olmadığı qədər qüdrətli və müasir ölkəyə çevirdi. Təsadüfi deyil ki, İlham Əliyev bu gün dünyanın qabaqcıl siyasət liderləri sırasında yer alan böyük beynəlxalq nüfuza malik dövlət başçısıdır.**

“Siyasət səmasında parlayan ulduz. İlham Əliyev” kitabı sayəsində türk oxucuları cənab İlham Əliyev haqqında dolğun və hərtərəfli məlumat əldə etmək imkanı qazanır. Zəngin fotoşəkillər kolleksiyası ilə illüstrasiya olunmuş bu kitab ötən əsrin 90-cı illərində dağılmaq ərəfəsində olan bir respublikadan XXI yüzilliyin yaşadığımız dönəmində əsl inkişaf və tərəqqi nümunəsinə çevrilmiş Azərbaycan haqqında əyani və dolğun təsəvvürlər yaradır. Bu inkişaf, xüsusilə də 2003-2013-cü illəri əhatə edən dövr Azərbaycanın tarixinə “əsrə bərabər on il” kimi qızıl hərflərlə yazılmış və bilavasitə görkəmli dövlət başçısı İlham Əliyevin liderlik istedadı, siyasi zəhmi, uzaqgörənliyi, idarəçilik məharəti ilə bağlıdır. Cənab İlham Əliyevin müdrik rəhbərliyi altında Azərbaycan bütün sahələrdə - iqtisadi, siyasi, mədəniyyət, idman, təhsil, təhlükəsizlik və sair istiqamətlərdə görünməmiş inkişafa imza atmışdır. Müəllifin “Xalq tərəfindən seçilmiş rəhbər məhz belə olmalıdır” kimi fikri bütün bu dediklərimizin və keçdiyimiz nəhəng inkişaf yolunun məntiqli qənaətidir. Bu gün respublikamızın öz dövlətinə və xalqına sadiq hər bir vətəndaşı Azərbaycan adlı gəminin sükanının ən güvənli əllərdə olmasından qürur duyur.

Böyük Vətən oğlu, türk dünyasının və beynəlxalq siyasətin tarixi şəxsiyyətlərdən biri Heydər Əliyev tərəfindən əsası qoyulmuş və Prezident İlham Əliyevin istedadı və uzaqgörənliyi nəticəsində zəmanəmizin bütün çağırışlarına cavab verən inkişaf fəlsəfəsi Azərbaycan Respublikasının bütün, hətta ən ucqar və uzaq yerlərinə belə tərəqqi, özünəinam, firavanlıq gətirdi.

Xüsusilə iqtisadi inkişafa böyük önəm verən cənab İlham Əliyevin rəhbərliyi ilə sırf Azərbaycana məxsus unikal milli iqtisadi inkişaf modeli işlənib hazırlanıb və həyata keçirilmişdir. Bu model bir çox ölkələr üçün nümunə və oriyentir də oldu. Məhz həmin modelin reallaşdırılmasının ilk mərhələsində respublikamız qısa müddət ərzində bazar iqtisadiyyatına keçid dövrünü adladı və 2008-ci ildə cənab İlham Əliyev Azərbaycanda tam olaraq bazar mexanizmlərinə əsaslanan milli iqtisadiyyatın formalaşdığını bəyan etmişdir.

Ümumiyyətlə, istənilən dövlətin inkişaf modelinin prinsiplərinə müvafiq olaraq reallaşdırılan iqtisadi siyasət və sosial-iqtisadi proseslərin tənzimlənməsi, təkcə yalnız iqtisadi artımın yüksək tempinin əldə olunması ilə məhdudlaşmır. Bu baxımdan cənab İlham Əliyevin rəhbərliyi altında respublikamız beynəlxalq miqyasda baş verən prosesləri, mütərəqqi tendensiyaları diqqət mərkəzində saxlayaraq iqtisadi strategiyanın təhlükəsizliyi, dinamikliyi, tarazlığı və səmərəli fəaliyyəti, rəqabətqabiliyyətliliyi gözlənilməklə dayanıqlı və uzunmüddətli inkişafın təmin edilməsinə yönəlmişdir. Belə olmasaydı, qısa zaman kəsiyində Azərbaycan 1990-cı illərin əvvəlində müşahidə olunan dərin böhrana yenidən yuvarlanardı. Hətta bu zaman biz inkişaf və tərəqqi üçün zəruri olan başlanğıc imkanlarını da itirmək təhlükəsi ilə üzləşə bilərdik.

Müəllif haqlı olaraq qeyd edir ki, milli iqtisadiyyatımızın inanılmaz inkişafı neft amilinə əsaslansa da, son illər ərzində dövlət başçısının siyasətində qeyri-neft istiqaməti prioritet təşkil edir. Professor Nemətzadənin bu amili önə çəkməsi tam məntiqlidir, çünki respublikamızın şaxələndirilmiş iqtisadiyyatı təkcə davamlı inkişaf deyil, həm də siyasi sabitlik, əmin-amanlıq və hərtərəfli tərəqqi deməkdir.




Bu gün Azərbaycan gündən-günə inkişaf edən bir ölkə olaraq Avropa və Asiya arasında mühüm körpü rolunu oynayır. Respublikamızın yerləşdiyi coğrafi məkan Avropa və Asiya qovuşuğundadır. Təsadüfi deyil ki, Qafqaz, xüsusilə də Cənubi Qafqaz bütün dünyanın diqqətini özünə cəlb edir. Aydındır ki, ölkəmizin yerləşdiyi belə bir mürəkkəb geosiyasi coğrafiyada maraqları xeyli ziddiyyət təşkil edən böyük dövlətlərlə milli maraqlarımıza cavab verən siyasət yürütmək asan deyil. Bu gün əminliklə deyə bilərik ki, cənab İlham Əliyev bu çətin vəzifənin öhdəsindən layiqincə gəlir. Artıq dünyanın bütün əsas siyasi qüvvələri bilirlər ki, Azərbaycan etibarlı tərəfdaşdır, ölkəmizlə iqtisadi və siyasi əlaqələr qarşılıqlı hörmət, faydalılıq, dövlətlərin daxili işlərinə müdaxilə etməmək kimi prinsiplərə əsaslanır. Dövlət başçısı dəfələrlə vurğulamışdır ki, ölkəmiz müstəqil siyasət həyata keçirir, heç kimdən asılı deyil və heç kimdən yardım almır. Əksinə, bir çox dövlətlərə yardım əlini uzadır, iri investisiyalar yatırır, donor qismində çıxış edir. Qonşu ölkələrlə sülh, əmin-amanlıq şəraitində yaşamaq Azərbaycanın xarici siyasət kursunun ana xəttidir. Müəllif haqlı olaraq qeyd edir ki, hər keçən gün respublikamızın əldə etdiyi uğurlar, beynəlxalq aləmdə Azərbaycanın qazanmış olduğu nüfuz ölkəmizin güvənli əllərdə olmasının əyani sübutudur: “Xalqının mətanətli, şərəfli övladı, siyasət simasında hər gün yüksələn şahini İlham Əliyevə güvənimiz sonsuzdur, əbədidir, tükənməzdir. ...Bu da Azərbaycanın xoş gələcəyinin zəmanəti deməkdir.”

İlham Əliyev kimi böyük siyasətçinin formalaşması tamamilə təbii və obyektiv bir tarixi hadisədir. Çünki o, dahi dövlət və siyasət adamı olmuş Heydər Əliyev və görkəmli oftalmoloq, akademik Zərifə xanım Əliyevanın ailəsində böyüyüb, tərbiyə almış, Heydər Əliyev məktəbini keçmişdir. “Siyasət səmasında parlayan ulduz. İlham Əliyev” kitabının müəllifi Azərbaycan Prezidentinin portretini yaradarkən ulu öndər Heydər Əliyev və akademik Zərifə xanım Əliyeva haqqında da bəhs edir. Diqqətçəkən məqam bundan ibarətdir ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təkcə nəhəng dövlət adamı kimi fövqəladə bilik və səriştəsinə deyil, həmçinin bu bənzərsiz şəxsiyyətinin yüksək, əlçatmaz insani, vətənsevər, xalqsevər keyfiyyətlərinə də diqqət yetirilir. Bu baxımdan Heydər Əliyevin dostu, Bilkent Universitetinin və YÖK-ün qurucusu professor İhsan Doğramacının haqqında danışdığımız kitabda yer aldığı sözlər çox maraqlıdır: “ Atatürkün Türkiyədə, Heydər Əliyevin isə Azərbaycanda olması Allahın bir lütfüdür. Onun Vətəninə olan fövqəladə sevgisi və milləti ilə qürur duymasına heyran qaldım. Bu möhtəşəm siyasət və dövlət adamı Türk yazarları Namik Kamal, Rəşad Nuri Güntəkin daxil başqa yazarların da əsərlərini sevəsevə oxuduğunun şahidi oldum. Zatən Heydər Əliyev bir Türk sevdalısı idi, böyük Türk dünyasından ilhamla, sevinərək danışırdı. ... Onun “Bir millət, iki dövlət” ifadəsi həqiqətən də atasözü olaraq vətənində dillər əzbəri oldu. ... Nə qədər möhtəşəm, deyilmi? Məncə zaman keçdikcə başqa Türk dövlətləri də eyni ifadələr səsləndirəcək.”

Görkəmli oftalmoloq, akademik Zərifə xanım Əliyeva haqqında müəllif yazır: “Azərbaycan və Sovet tibbinin qabaqcıl isimlərindən biri, təcrübə və nəzəriyyə sahəsində tanınmış həkim Zərifə xanım Əliyevanın neçə-neçə gənc kadrların yetişməsində müstəsna xidmətləri olmuşdur. Bu gün Azərbaycanda oftalmologiya sahəsində çalışan bizim yerli həkimlər onun tələbələri olmuşlar. Zəngin təcrübəyə sahib fədakar şəxsiyyət, eyni zamanda gözəl və mütəvazi insan kimi ümdə xüsusiyyətlərə malik idi. Xəstələrin mehriban həkimi, bacısı, anası, öz işinin mükəmməl təşkilatçısı olan Zərifə xanım geniş xalq kütlələri tərəfindən tanınır, səmimi qəlbdən sevilirdi.”

Kitabda həmçinin ulu öndər Heydər Əliyevin də Zərifə xanım barədə 1995-ci ildə dediyi sözlər yer alır: “Zərifə xanım mənə xoşbəxtlik bəxş etmişdir... Gənc yaşlarımda mənim həyatım dövlət işləri ilə bağlı olmuşdur. Mən bütün həyatımı buna sərf etdim. Bu gün də bu yolda çalışmalarıma davam edirəm. Mənim uğurlu fəaliyyətimdə ailəmin çox böyük paya sahib olduğundan, Zərifə xanım kimi həyat yoldaşımın olduğundan və onun ailədə çox yüksək mənəvi mühit yaratdığından çox xoşbəxtəm. Həyatımın bütün dövrlərində, dövlət işləri ilə məşğul olduğum dönəmlərdə ailə məsələlərinə çox vaxt ayırmağa imkanım yox idi. Bu məsuliyyət Zərifə xanımın üzərinə düşmüş, o da bunu şərəflə, ədalətli şəkildə, məharətlə yerinə yetirmişdir”. Beləliklə, Prezident İlham Əliyevin rəhbərliyi altında inkişaf edən Azərbaycanın uğurları təsadüfi deyil. Ə.Nemətzadənin fikrincə müasir Azərbaycan dünyanın bütün ölkələri ilə, başda ABŞ, Yaponiya, Çin, Almaniya, Böyük Britaniya kimi iqtisadiyyatı yüksək inkişaf mərhələsində olan ölkələrlə bərabər tutula biləcək potensialı yaradılmış qüdrətli, dayanıqlı, nüfuzlu dövlətdir. Bəli, Azərbaycanın sükanı etibarlı əllərdədir və ölkəmiz yaxın gələcəkdə dünyanın qabaqcıl, inkişaf etmiş ölkəsi olmaq yolunda inamla addımlayır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə xalqımızın və dövlətimizin əldə etdiyi tarixi uğurlar haqqında yazarkən Ə.Nemətzadə “Siyasət səmasında parlayan ulduz. İlham Əliyev” kitabında tam doğru olaraq qeyd edir: “Xalqın arasında olarkən, biz cənab İlham Əliyevi bir dövlət başçısı kimi deyil, səmimiliyi və sadəliyinə görə bizlərdən biri, adi insanlara olduqca yaxın adam kimi görürük. Bu xüsusiyyətinə görə İlham Əliyev daim xalqını düşünən, xalqdan olan, xalqın sevinc mənbəyinə çevrilmiş bir şəxsiyyətdir... Mən əminəm ki, bu cür davam edərsə, - mənim də buna qətiyyən şübhəm yoxdur, - Azərbaycan xalqı toplanaraq, bir araya gələrək İlham Əliyevi əbədi dövlət başçısı seçəcəkdir. Çünki xalqın arasında cənab Prezidentə olan güvən, etibar, sevgi onun xalqdan biri olduğunu sübut edir.”

**Emin QASIMOV,**
**“Respublika”.**

# Qəbələdə general-mayor Polad Həşimov küçəsi

**Qəbələdə mərkəzi küçələrdən birinə şəhid general-mayor Polad Həşimovun adı verilib. Ötən gündən etibarən Polad Həşimov yazılan lövhələr artıq küçəboyu yerləşdirilib. Amma bəzi kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə Qəbələ şəhərində şəhid general-mayor Polad Həşimovun adının Həzi Aslanov küçəsinə verilməsi ilə bağlı yalan məlumatlar yayılıb.**



Rayon icra hakimiyyətinin baş memarı Təbriz Abdulxalıqov AZƏRTAC-a bildirib ki, Qəbələ rayonunda Həzi Aslanov küçəsinə Polad Həşimovun adının verilməsi barədə məlumat həqiqətə uyğun deyil və əsassızdır.

Baş memarın sözlərinə görə, Polad Həşimovun adı Qəbələ şəhərində Şəhidlər xiyabanının yerləşdiyi küçəyə verilib. "Polad Həşimov küçəsi başlanğıc nöqtəsi Həzi Aslanov küçəsi ilə kəsişmədən başlayaraq son nöqtəsi Arif Haqverdiyev küçəsi ilə kəsişməyədək davam edir. Yəni, Həzi Aslanov küçəsinin adı dəyişdirilməyib. Bu küçənin başlanğıc nöqtəsi Heydər Əliyev prospekti ilə kəsişmədən başlayaraq, son nöqtəsi 1941-1945-ci illər Böyük Vətən müharibəsi zamanı həlak olmuş şəxslərin xatirəsinin əbədiləşdirilməsi məqsədilə ucaldılmış abidə kompleksinədək uzanır. Bir daha kütləvi informasiya vasitələrini və sosial media istifadəçilərini həqiqətə uyğun olmayan məlumatlar yaymamağa və ictimaiyyətdə çaşqınlıq yaratmaqdan çəkinməyə çağırırıq", - deyə Təbriz Abdulxanov bildirib.

Qəbələ şəhər sakini Sədaqət Bayramova ilə söhbət zamanı deyib ki, general-mayor Polad Həşimovun adının Qəbələnin ən böyük və baxımlı, yerli sakinlərin, eləcə də turistlərin sıx hərəkət etdikləri küçəyə verilməsi həqiqətən də qürurvericidir.

Vəndam qəsəbə sakini Eyvaz Kazımov isə vurğulayıb ki, Polad Həşimovun adı hər bir azərbaycanlının qəlbində daim yaşayacaq. Bununla belə şəhidimizin adının rayonun küçələrindən birinə verilməsi hər bir qəbələlidə qürur hissi doğurub.

Qeyd edək ki, general-mayor Polad Həşimov Ermənistanın Azərbaycanla dövlət sərhədinin Tovuz rayonu istiqamətində törətdiyi son təxribatlar zamanı müdafiənin ön xəttində qəhrəmancasına şəhid olub. O, 2-ci Fəxri xiyabanda dəfn edilib.

İyulun 30-da Qəbələ rayonuna səfəri çərçivəsində Prezident İlham Əliyev Qəbələnin Vəndam kəndində anadan olmuş general-mayor Polad Həşimovun xatirəsinin əbədiləşdirilməsi üçün rayonun küçələrindən birinə onun adının verilməsi və digər müvafiq tədbirlərin görülməsi barədə rayon icra hakimiyyətinin başçısına tapşırıq vermişdi.

AZƏRTAC

*Baş Prokurorluq:*

# 14 iyulda baş verən hadisələrlə bağlı istintaqa cəlb edilənlərin hüquq və azadlıqları tam təmin olunub

**Xəbər verildiyi kimi, cari il iyulun 14-dən 15-nə keçən gecə ictimai asayişin pozulmasına səbəb olan hərəkətlərin təşkil olunması, bu cür hərəkətlərdə fəal iştirak edilməsi və xidməti vəzifələrini yerinə yetirən hakimiyyət nümayəndələrinə zor tətbiq etməklə müqavimət göstərilməsi ilə müşayiət olunan hərəkətlərin törədilməsi faktları ilə bağlı Azərbaycan Respublikası Baş prokuroru tərəfindən Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanaraq Baş Prokurorluğun və Daxili İşlər Nazirliyinin əməkdaşlarından ibarət birgə istintaq-əməliyyat qrupu yaradılmaqla istintaqın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə tapşırılıb.**

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, cinayət işinin istintaqı zamanı cinayət törətmiş şəxslərin dairəsi müəyyən edilməklə bu cinayətin təşkil olunmasında, o cümlədən törədilməsində bilavasitə iştirak etmiş şəxslər istintaqa cəlb olunmaqla barələrində məhkəmənin müvafiq qərarları ilə həbs qətimkan tədbirləri seçilib.

Hazırda cinayət işi üzrə zəruri, intensiv istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri davam etdirilməklə cinayətin törədilməsində hər hansı formada iştirak etmiş şəxslərin müəyyənləşdirilərək cinayət məsuliyyətinə cəlb olunmaları təmin ediləcək.

Bununla yanaşı, qeyd edilməlidir ki, bəzi kütləvi informasiya vasitələrində və sosial media səhifələrində təqsirləndirilən Seymur Əhmədov, Asif Yusifli, Fuad Qəhrəmanlı və digərlərinin həyata keçirilən prosessual hərəkətlər zamanı guya hüquqlarının pozularaq işgəncə və zorakılığa məruz qalmaları ilə bağlı həqiqətə uyğun olmayan məlumatlar yayılıb.

Baş Prokurorluq tərəfindən diqqətə çatdırılır ki, təqsirləndirilən şəxslərin iştirakı ilə keçirilmiş bütün istintaq hərəkətləri Cinayət Prosessual Məcəlləsinin tələblərinə uyğun olaraq yalnız müdafiəçinin iştirakı ilə həyata keçirilib və sonuncuların hüquqlarının pozulması hallarına yol verilməyib.

Bir daha qeyd edilir ki, cinayət işinin istintaqı zamanı əsassız, dəqiqləşdirilməmiş, siyasi məqsəd güdən yalan informasiyaların yayılması yolverilməzdir və istintaqın obyektiv gedişinə təzyiq göstərilməsi kimi qiymətləndirilir.

AZƏRTAC




# Azərbaycanın və Gürcüstanın Baş prokurorluqları arasında səmərəli əməkdaşlıq davam etdirilir

Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən milli qanunvericiliyin və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrin, o cümlədən "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" Minsk Konvensiyasının tələblərinə əsasən, Gürcüstanın Baş Prokurorluğu ilə ikitərəfli münasibətlər çərçivəsində respublikamızın ərazisində cinayət törətmiş şəxsin cinayət məsuliyyətinə cəlb olunmasından ötrü Azərbaycan Respublikasına ekstradisiyası barədə sorğu edilib.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Fədail Quliyevin 2017-ci ildə Bakıda Türkiyə Respublikasının vətəndaşı Kaman Eyyup Hakandan satış məqsədilə 500 min ədəd saxta aksiz markası sifariş edərək ölkəmizdə satışını həyata keçirməsinə əsaslı şübhələr müəyyənləşdirilib və bu səbəbdən təqsirləndirilən şəxs qismində cəlb edilməklə barəsində beynəlxalq axtarış elan olunub.

Fədail Quliyevin Gürcüstan ərazisində yerinin müəyyən edilməsi əsası ilə Azərbaycan Respublikasının Baş Prokurorluğunun Gürcüstan Baş Prokurorluğuna sorğusu təmin olunub. Fədail Quliyevin Azərbaycan Respublikasına ekstradisiyası yaxın günlərdə həyata keçiriləcək.

AZƏRTAC

# Xüsusi karantin rejimi dövründə qanunsuz arayış verən vəzifəli şəxsin cinayət işi məhkəməyə göndərilib

**Koronavirus pandemiyasının yayılmasının qarşısının alınması məqsədilə ölkəmizdə elan olunan xüsusi karantin rejimi qaydalarının müxtəlif yollarla pozulması hallarına qarşı prokurorluq orqanları tərəfindən kompleks və ardıcıl tədbirlər davam etdirilir.**

Goranboy Rayon Prokurorluğundan AZƏRTAC-a daxil olan məlumatda bildirilib ki, rayon prokurorluğuna Naftalan Şəhər İcra Hakimiyyəti başçısının 1 nömrəli sahə inzibati ərazi dairəsi üzrə nümayəndəsi Asəf Cabbarovun koronavirus infeksiyasının Azərbaycan Respublikasının ərazisində geniş yayılmasının qarşısının alınmasına dair əlavə tədbirlər haqqında Nazirlər Kabinetinin Qərarına zidd olaraq xüsusi karantin rejimində sərbəst hərəkət etmələri üçün müxtəlif şəxslərə arayışlar verməsi barədə məlumat daxil olub.

Araşdırmalarla Asəf Cabbarovun xidməti vəzifə səlahiyyətlərindən istifadə edərək ayrı-ayrı şəxslərə karantin postlarında yoxlamalar zamanı təqdim etmələri və şəhər ərazisində rahat hərəkət edərək iş fəaliyyətləri ilə məşğul olmaları üçün qanunsuz olaraq 100 arayış tərtib etməklə verməsinə əsaslı şübhələr müəyyənləşdirilib.

Faktla bağlı Goranboy Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 309.1-ci (vəzifə səlahiyyətlərini aşma) maddəsi ilə cinayət işi başlanıb və Asəf Cabbarov təqsirləndirilən şəxs qismində cəlb olunub. Ona həmin maddə ilə ittiham elan edilib və barəsində başqa yerə getməmək barədə iltizam qətimkan tədbiri seçilib.

Avqustun 4-də cinayət işinin ibtidai istintaqı tamamlanaraq aidiyyəti üzrə baxılması üçün Naftalan Şəhər Məhkəməsinə göndərilib.

AZƏRTAC

# Vətəndaşların əmək hüquqlarını pozan vəzifəli şəxs barəsində cinayət işi baxılması üçün məhkəməyə göndərilib

**Ölkəmizdə aparılmış uğurlu iqtisadi islahatlar nəticəsində sahibkarlıq subyektləri üçün yaranmış əlverişli mühitdən öz şəxsi maraqları naminə istifadə edərək dövlətin mənafeyinə ziyan vuran, vətəndaşların hüquqlarını pozan vəzifəli şəxslərin qanunsuz əməllərinin aşkarlanması istiqamətində prokurorluq orqanlarının kompleks və məqsədyönlü tədbirləri davam etdirilir.**

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu istiqamətdə reallaşdırılan tədbirlərin davamı kimi, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs Cəlal Məhərrəmovun vətəndaşların əmək hüquqlarını kobud şəkildə pozan qanunsuz hərəkətləri barədə Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin 161 saylı "qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş müraciətə baxılıb.

Araşdırmalarla Cəlal Məhərrəmovun 2018- 2020-ci illər ərzində fəaliyyətini təşkil etdiyi "Jalal-İ" tədris mərkəzinin baş ofisində və filialların inzibati binalarında ona müxtəlif ixtisas sahələri və peşə istiqamətləri üzrə kursları şagird, abituriyent və sair şəxslərə tədris etmək üçün işə qəbul olunmaq məqsədilə müraciət edən 34 nəfəri Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən həmin tədris kurslarında faktiki olaraq işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb etməsinə, həmin şəxslərin əmək hüquqlarına və qanuni mənafelərinə, habelə sağlam və təhlükəsiz əmək şəraitinin təmin olunması, fərdi və ictimai rifahın əsası kimi əmək münasibətlərinin qorunması sahəsində dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vuraraq vəzifə səlahiyyətlərindən sui-istifadə etməsinə əsaslı şübhələr müəyyənləşdirilib.

Toplanmış material əsasında aprelin 21-də Baş İdarədə Cinayət Məcəlləsinin 162-1.1 (Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda işçinin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi) və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə mühüm zərər vurduqda) maddələri ilə cinayət işi başlanaraq Cəlal Məhərrəmova həmin maddələrlə ittiham elan olunub.

Cinayət işi üzrə ibtidai istintaq iyulun 30-da tamamlanıb və ittiham aktı təsdiq edilməklə baxılması üçün Nəsimi Rayon Məhkəməsinə göndərilib.

Azərbaycan Respublikasının Baş Prokurorluğu bu qəbildən olan qanunazidd hallarla üzləşən vətəndaşları Baş Prokurorluğun 961 nömrəli Çağrı mərkəzinə və Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin 161 saylı "qaynar xətt" əlaqə mərkəzinə məlumat verilməsini tövsiyə edir.

AZƏRTAC

# Misir mətbuatında erməni diplomatın yalanları tutarlı faktlarla ifşa edilib

**Misirin "Əl-Əxbar" qəzetinə müsahibəsində Ermənistanın hərbi təxribatlarına bəraət qazandırmaq, hətta öz əməllərini başqasının üzərinə atmaq kimi "erməni brendi"nə əl atmaq istəyən, Azərbaycan və Türkiyənin ünvanına cəfəng iddialar səsləndirən işğalçı ölkənin Qahirədəki səfiri Karen Qriqoryanın yalanları elə həmin qəzetdə tutarlı faktlarla ifşa olunub. Azərbaycanın Misirdəki səfiri Tural Rzayevin erməni diplomatının "Türkiyə genişlənmə siyasətini tətbiq etmək və "yeni Osmanlıya" nail olmaq istəyir" sərlövhəli müsahibəsinə cavabı beynəlxalq hüquqdan və diplomatiyadan nəsibini almamış Qriqoryana "azərbaycanlı şilləsi" effekti yaradıb.**

Ermənistan-Misir münasibətləri, Ermənistanın Misirin Avrasiya İttifaqı ilə sərbəst ticarət sazişi imzalamaq səylərini dəstəkləməsinə toxunan, Bakı ilə İrəvan arasındakı son toqquşmalarda Türkiyəni Azərbaycanı hərbi cəhətdən dəstəkləməkdə ittiham edən, daha sonra Ankaranın bu dəstəyini "yeni Osmanlı" siyasətinin davamı olduğunu və Prezident Rəcəb Tayyib Ərdoğanın bölgədəki sabitliyi pozduğunu vurğulayan Qriqoryan "Dağlıq Qarabağ" xalqının (dünyada belə bir xalqın mövcudluğu yalnız ermənilərə məlumdur - AZƏRTAC) Azərbaycanın həmin ərazilərə sahib çıxmasına mane olmaq üçün müqavimət göstərdiyini bəyan edib. Heç bir arqumentə söykənməyən müsahibəsində regionda sülhə və təhlükəsizliyə ciddi təhlükə olan işğalçı Ermənistanın səfirinin məhz Türkiyəni Cənubi Qafqazda sabitliyi pozmaq cəhdlərində ittiham etməsi, "Ankaranın bütün imkanları ilə Azərbaycana dəstək verməyə hazır olduğunu və "bir millət və iki dövlət" prinsipinə uyğun olaraq, Ermənistana qarşı yaxın müttəfiqinə hər cür kömək göstərməyə davam edəcəyini" söyləməsi isə çarəsizlik və qorxu əlamətidir.

AZƏRTAC Azərbaycan səfirinin "Əl-Əxbar" qəzetində dərc olunmuş cavabının mətninə istinadla bildirir ki, diplomatımız beynəlxalq hüququn norma və prinsiplərindən, həmçinin beynəlxalq təşkilatların qəbul etdiyi qətnamə və qərarlardan məlumatı olan hər kəsin beynəlxalq ictimaiyyətin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində ölkəmizin ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini diqqətə çatdırıb. Eyni zamanda, onlar Azərbaycan torpaqlarının 20 faizinin - Dağlıq Qarabağ və ona bitişik yeddi rayonun Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunduğuna dair məlumatlıdırlar. Sözügedən münaqişə ilə bağlı sülh danışıqlarının heç bir nəticə verməməsinin əsas səbəbi isə Ermənistanın BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrini yerinə yetirməməsi, status-kvonu saxlamasıdır. Həmin qətnamələrdə işğalçı tərəf ilə işğala məruz qalmış tərəflərin adları açıq-aşkar çəkilir.

"Biz dünyanın ən böyük beynəlxalq təşkilatına inanaq, yoxsa torpaqlarımızı işğal edən və bir milyondan çox vətəndaşımızı qaçqın və köçkün vəziyyətinə salan Ermənistanın dediklərinə?!", - deyə diplomatımız sual verir. Əlavə edir ki, Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq, öz torpaqlarını işğaldan azad etmək haqqına sahibdir.

İyulun 12-dən başlayaraq Ermənistanın Azərbaycan-Ermənistan sərhədində Tovuz rayonu istiqamətində törətdiyi təxribatlara toxunan səfir bunun əsas səbəbkarının rəsmi Yerevan olduğunu vurğulayır. Qeyd edir ki, çünki Tovuz istiqaməti Azərbaycanın beynəlxalq və regional iqtisadi layihələrinin - neft və qaz kəmərlərinin, İpək yolunun yaxınlığından keçdiyi strateji bölgədir. Azərbaycan bu boru kəmərləri vasitəsilə Avropa ölkələrinin enerji təhlükəsizliyini təmin edir və ölkəmizin həmin ərazilərə yaxın Ermənistanla sərhəd yerlərdə hücuma keçməsinin heç bir məntiqi əsası yoxdur. Ona görə də Ermənistanın Azərbaycanı ittiham etməsi gülüncdür.

Azərbaycan səfiri diqqətə çatdırır ki, toqquşmalar baş verən zaman dərhal Ermənistanın üzv olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) müraciət etməsi və bu cəhdin cavabsız qalması üzv olduğu təşkilatın belə rəsmi Yerevanın dediklərinə inanmadığını göstərir. Azərbaycan Ordusu erməni hücumlarının qarşısını qətiyyətlə alıb və cavab atəşi ilə düşməni susdurub. Bu hücumlar zamanı Azərbaycan 12 şəhid verib, lakin Ermənistan tərəfi ölənlərin sayını hələ də gizli saxlayır.

Yazıda, həmçinin qeyd edilir ki, BMT, Qoşulmama Hərəkatı, İƏT kimi nüfuzlu beynəlxalq təşkilatların qəbul etdiyi qətnamə və qərarların tələblərini yerinə yetirməyən, 1994-cü ildə iki ölkə arasında bağlanmış atəşkəs rejimini mütəmadi şəkildə pozan, 1992-ci ildə Xocalı soyqırımını törədən Ermənistan beynəlxalq hüquqdan danışmaq haqqına sahib deyil.

1994-cü ildən bəri ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə davam edən danışıqların heç bir nəticə verməməsinin səbəbi isə Ermənistanın qeyri-konstruktiv mövqeyidir.

Səfir T.Rzayev qondarma "Dağlıq Qarabağ Respublikası" məsələsi ilə əlaqədar erməni səfirə sual verərək deyir: "Bu, "müstəqil respublikadır?". Beynəlxalq ictimaiyyət və ya hər hansı bir dövlət, yaxud da Ermənistan tərəfindən belə bir "müstəqil respublika" tanınıbmı?! Xeyr, bu mümkün deyil və ola da bilməz! Ermənistan da daxil olmaqla heç bir dövlət qondarma "Dağlıq Qarabağ Respublikası"nı tanımayıb və tanıya da bilməz".

Diplomatımız vurğulayır ki, Azərbaycan Prezidenti İlham Əliyev bəyanatında "əgər Ermənistan özü belə bir "respublikanı" tanımağa qalxsa, bunun cavabını görəcəkdir..." deyə bildirib. Çünki qondarma "respublika" adlandırılan Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Beynəlxalq ictimaiyyət də Dağlıq Qarabağı Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, onun ayrılmaz bir hissəsi kimi tanıyır.

AZƏRTAC

# Baş Dövlət Yol Polisi İdarəsi texniki baxışla bağlı hüquqi və fiziki şəxslərə müraciət edib

**Daxili İşlər Nazirliyinin (DİN) Baş Dövlət Yol Polisi İdarəsi (BDYPİ) nəqliyyat vasitələrinin texniki baxışdan keçirilməsi ilə əlaqədar hüquqi və fiziki şəxslərə müraciət edib.**

İdarədən AZƏRTAC-a verilən məlumata görə, şəxslərin yaşayış yerini və olduğu yeri SMS icazə, xidməti vəsiqə, "icaze.e-gov.az" portalı vasitəsilə tərk etmək sisteminin avqustun 5-dən ləğv edildiyi nəzərə alınaraq, Baş Dövlət Yol Polisi İdarəsi istifadəsində olan nəqliyyat vasitələrinin texniki baxışdan keçmə müddətinin bitməsi ilə bağlı SMS məlumat almış avtomobil sürücülərinin və sahiblərinin diqqətinə çatdırır ki, sərtləşdirilmiş karantin rejimi tətbiq edilmiş Bakı, Sumqayıt və Abşeron rayonu ərazisində yaşayan sakinlər paytaxtın Sabunçu rayonu ərazisində yerləşən Texniki Müayinə Mərkəzində və ya Sumqayıt Regional qeydiyyat-imtahan və texniki baxış şöbəsində, avtomobillərini texniki baxışdan keçirmək üçün sərtləşdirilmiş karantin rejimi tətbiq edilmiş inzibati ərazilərə getmək məcburiyyətində olmayan digər şəhər və rayon sakinləri isə yaşadıqları ərazinin aid olduğu BDYPİ-nin regional qeydiyyat-imtahan və texniki baxış şöbələrində nəqliyyat vasitələrini texniki baxışa təqdim etməlidirlər.

AZƏRTAC

## “Şəmkir Rayon İcra Hakimiyyəti Başçısının Şəmkir Şəhər İnzibati Ərazi Dairəsi üzrə nümayəndəliyi” Şəmkir şəhər 7 saylı körpələr evi-uşaq bağçasında təmir işlərinin satın alınması üzrə

# AÇIQ TENDER ELAN EDİR

**Tender 1 lot üzrə keçirilir:**

**Lot 1:** Şəmkir şəhər 7 saylı körpələr evi-uşaq bağçasında təmir işləri

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet portalı vasitəsilə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər Lot-1 50 manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu https://etender.gov.az/ dövlət satınalmalarının vahid internet portalı vasitəsilə adı çəkilən tenderin bölməsində əldə edə bilərlər (Əlaqələndirici şəxs: Yusibov Ramil telefon: 050-459-62-90)

İddiaçı şirkətlərin asan/elektron imzalarının olması zəruridir. Yalnız asan imzası yaxud elektron imzası olan İddiaçı dövlət satınalmalarının vahid internet portalında qeydiyyatdan keçə bilər.

**Hesab: AZ97AİİB32051019444700 20114**
**VÖEN: 3200008661**
**Bank:Kapital Bank Şəmkir filialı**
**Kodu: 200479**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T: AİİBAZ 2X**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*-tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*

*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*-İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Tender proseduru “Dövlət satınalmaları haqqında” Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 31 avqust 2020-ci il saat 12:00-a qədər, bank təminatını və tender təklifi isə 08 sentyabr 2020-ci il saat 12:00-a qədər dövlət satınalmalarının vahid internet portalı vasitəsilə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflərə baxılmayacaq.

İddiaçıların tender təklifləri 09 sentyabr 2020-ci il saat 12:00-da dövlət satınalmalarının vahid internet portalı vasitəsilə açılacaqdır.

## MİNGƏÇEVİR ŞƏHƏR MƏNZİL TƏSƏRRÜFATI VƏ ABADLAŞDIRMA İDARƏSİ 2020-ci il ÜZRƏ MAL-MATERİALLARIN SATINALINMASI İLƏ ƏLAQƏDAR

# AÇIQ TENDER ELAN EDİR

**Tender 1 (bir) LOT üzrə aparılacaq:**

**LOT-1:** Mal-materialların satın alınması.

Malların təchizat müddəti 1 (bir) ildir.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir, aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti, müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderlə əlaqədar məlumat almaq üçün maraqlananlar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

**Əlaqələndirici şəxs: Qasımova Şövkət**
**Telefon:** 024-274-58-42
**Ünvan:** Mingəçevir şəhəri M.Maqomayev pr. 77.

Maraqlananlar əsas şərtlər toplusunu aşağıdakı məbləğdə iştirak haqqını köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər.

İştirak haqqı:
LOT - 1 üzrə: 80 manat.

İştirakçılar iştirak haqqını aşagıdakı hesaba köçürməlidirlər.

**Təşkilat: Mingəçevir şəhəri Mənzil Təsərrüfatı və Abadlaşdırma İdarəsi**
**Hesab:AZ93AİİB 33010019442900240129**
**VÖEN: 2700195471**
**Bank: “Kapital Bank”ın Mingəçevir filialı**
**Kod: 200297**
**VÖEN: 9900003611**
**Müxbir hesab:**
**AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T.Bik: AİİBAZ 2 X**

İştirak haqqı heç bir halda geri qaytarılmır. İştirakçılar tenderdə iştirak etmək üçün 26 avqust 2020-ci il saat 15:00-dək aşağıdakı sənədləri təqdim etməlidirlər.

*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*- iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*- iştirakçının son bir ildə maliyyə vəziyyəti haqqında bank arayışı;*

*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*- müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*

*- vergilərə və digər icbari ödənişlərə dair borclarının olmaması haqqında müvafiq vergi orqanından arayış;*

*- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*- işləri yerinə yetirmək üçün potensial imkanları haqqında məlumat.*

İddiaçılar müvafiq mallar üzrə tender təklifinin 1 (bir) faizi həcmində bank zəmanəti (zərflərin açıldığı gündən sora azı 60 bank günü müddətində qüvvədə olmalıdır) təqdim etməlidirlər.

İddiaçı tender təklifini 04 sentyabr 2020-ci il saat 15:00-a qədər yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender təklifi açıldığı gündən ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır.

Tender zərfləri 05 sentyabr 2020-ci il saat 15:00 da Mənzil Təsərrüfatı və Abadlaşdırma İdarəsində açılacaqdır. Əlavə məlumatları əlaqələndirici şəxs Qasımova Ş. əldə etmək olar.

İddiaçıların səlahiyyətli nümayəndələri açılışda iştirak edə bilərlər.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının qanununa uyğun keçiriləcəkdir.

**Tender Komissiyası.**

## İctimai Səhiyyə və İslahatlar Mərkəzi PHŞ COVİD 19 və digər mövzulara dair metodik vəsaitlərin və təlimatların hazırlanması göstərilən yardımların qiymətlədirilməsinə və İctimai Səhiyyə jurnalının beynəlxalq indeksləşdirmə sisteminə daxil edilməsi üçün fəaliyyətin yaradılması, ebmg.az. saytına yeni finlandiya protokollarını tərcüməsi formatlaşdırması və əlavə edilməsi, məktəblərdə COVİD 19 dair maarifləndirmə tədbirləri, ALSO və BLS təlimləri, tərcümə xidməti, tütündən imtina kabinetlərinin və diabet məktəbi yaradılması

# AÇIQ TENDERƏ DƏVƏT EDİR

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet portalı vasitəsilə elektron formada təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, podratçının aidiyyəti xidmətlər üzrə ixtisas göstəricilərinin uyğunluğu.

Müqavilənin tələb olunan yerinə yetirilmə müddəti: 31.12.2020-ci il tarixinə kimidir.

Tenderlə əlaqədar məlumat almaq üçün elektron qaydada əlaqələndirici şəxsə müraciət edə bilərsiniz.

**Əlaqələndirici şəxs:** (Məmmədova Aytən).
**Ünvan:** Baki şəhəri, Zərdabi 96.

Maraqlananlar tenderin Əsas şərtlər toplusunu (Əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır) tenderdə iştirak etmək üçün elektron müraciət etdikdən və aşağıda qeyd olunan hesaba məbləğ 150 (yüz əlli) manat məbləğində vəsaiti ödədikdən sonra dövlət satınalmalarının vahid internet portalı vasitəsilə elektron qaydada ala bilərlər. Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

**İctimai Səhiyyə və İslahatlar Mərkəzi PHŞ**
**Hesab: AZ86CTRE00000000000002128402**
**VÖEN: 1300204371**
**Bank: DÖVLƏT XƏZİNƏDARLIQ AGENTLİYİ**
**VÖEN: 1401555071**
**Kodu: 210005**
**M/H: AZ41NABZ01360100000000003944**
**S.W.İ.F.T: CTREAZ22**

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər.

*1. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*

*2. Tender təklifi (tender təklifləri zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*

*3. Tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır)*

*4. Malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:*

*4.1. Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*4.2. Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti barədə bank sənədi;*

*4.3. Malgöndərənin (podratçının) ixtisas göstəricilərinə dair məlumat (bu məlumatlar tenderin əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır).*

*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayışlar;*

*- Vergilər Nazirliyi tərəfindən həmin iddiaçıların işçilərinin sayı, əmlakları, avadanlıqları, lazımi texniki imkanlarının olmasına dair rəsmi arayış;*

*4.4. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) 1 və 4-cü bəndlərdə qeyd olunan sənədləri 28.08.2020-ci il saat 15.00 tarixə kimi tender komissiyasına dövlət satınalmalarının vahid internet portalı vasitəsilə elektron təqdim etməlidirlər.

Malgöndərənlər (podratçılar) öz tender təkliflərini 07.09.2020-ci il saat: 15.00-a qədər elektron portal vasitəsilə təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan təkliflər dövlət satınalmalarının vahid internet portalı vasitəsilə qəbul olunmayacaqdır.

Tender təklifləri zərfləri 08.09.2020-ci il tarixində saat: 15.00-da elektron portal vasitəsilə açılacaqdır.

**Tender Komissiyası.**

## BAKI MÜHƏNDİSLİK UNİVERSİTETİ PUBLİK HÜQUQİ ŞƏXS

## “Bakı Mühəndislik Universiteti” Publik Hüquqi Şəxsi 2020-ci il üzrə mühafizə xidmətlərinin satın alınması ilə əlaqədar

# ELEKTRON AÇIQ TENDERƏ DƏVƏT EDİR

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

İştirak haqqı 130 (bir yüz otuz) manat

**TƏŞKİLAT: “Bakı Mühəndislik Universiteti” Publik Hüquqi Şəxs**
**BANKIN ADI: “Kapital Bank” ASC Abşeron filialı**
**KOD: 200231**
**VÖEN: 9900003611**
**MÜXBİR HESABI:**
**AZ37NABZ01350100000000001944**
**SWİFT BİK: AİİBAZ2X**
**H/HESABI: AZ36AİİB38060019440157959123**
**VÖEN: 3102154051**
**Əlaqələndirici şəxs:** Musayev İsmət, tel: (012) 349 99 66/67, (daxili nömrə 1403)

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1.Tenderdə iştirak haqqının dövlət satınalmalarının vahid internet potalında asan ödəniş sistemi vasitəsilə ödənilməsi;*

*2.Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*3.Tender təklifi dəyərinin 1 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*

*4.Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*

*5.İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*6.İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*7.İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*8.Mühafizə xidmətlərinin göstərilməsinə dair lisenziya;*

*9.Digər sənədlər:*

